

# Elm və Təhsil Nazirliyi yaradıldı

Prezident İlham Əliyev "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb. "Unikal" xəbər verir ki, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin...

Səh.2


# UNİKAL

№27 (2112) 29 iyul 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




# Səhiyyə Nazirliyinin keçmiş tenderləri yenidən gündəmdə...

## Şirəliyevin zamanındakı dövlət satınalmaları ilə bağlı yoxlamalar aparılır?

Yaxın saylarımızdan birində yazmışdıq ki, bu ilin aprelində Hesablama Palatasının Səhiyyə Nazirliyində maliyyə nəzarəti tədbirləri həyata keçirdiyi məlum olub. Həmin vaxt qeyd edilmişdi ki, Palata 2022-ci ilin İş Planına əsasən "Böyrəklərin xroniki xəstəliyi sahəsində Azərbaycan Respublikasında həyata keçirilən fəaliyyətin auditinə dair" səmərəlilik auditi olaraq kənar dövlət maliyyə nəzarəti tədbirini həyata keçirir. Onu da vurğulamışdıq ki, auditin başa çatıb-çatmadığı barədə hələlik rəsmi açıqlama yoxdur, elə yoxlamalarda hansı nöqsanların aşkarlandığı barədə də hələlik bilgi verilmir.

Səh.8

Səh.3



# Prezidentin məmurlara son xəbərdarlığının şifrələri

## "Karantin qaydalarında müəyyən sərtləşmə ola bilər"



Tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. Həkim koronavirusa yoluxma sayının artmasından, virusun nə zaman bitəcəyindən, ölkəmizdə meymunçiçəyinə yoluxma hallarının qarşısının alınması üçün görülən işlərdən, icbari tibbi sığorta sisteminin çatışmazlıqlarından və başqa...

Səh.4

## "Əhalinin gəlirləri iqtisadi artım tempini üstələyir" - Prezidentin köməkçisi



Azərbaycanda 2018-2022-ci illərdə əməkhaqqının ÜDM-dəki payı 12,7 faizdən 17,1 faizə yüksəlib. "Unikal"ın məlumatına görə, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri...

Səh.9

## Mikayıl Cabbarova yeni vəzifə verildi



Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın tərkibinə dəyişiklik edilib. "Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Səh.2

# Aparıcılara Şəbnəm-Damla qadağası

***Müğənni Damla aparıcılara qadağa qoyub. Sənətçi verilişlərə gedərkən ona həmkarı Şəbnəm Tovuzlu ilə bağlı sual verilməməsini tapşırıb. Eyni qadağanı Şəbnəmin də qoyduğu ortaya çıxıb.***



Axşam.az-a açıqlama verən Şəbnəm xəbəri təsdiqləyərək bunları əlavə edib: ”Bunu bir çox aparıcı dostuma qadağan etmişəm. Daha doğrusu, qadağa kimi yox, xahiş etmişəm. Proqrama dəvət olunmuşamsa, mənə bir neçə müğənnilər, başda da Damla haqqında sual verilməsin. Onlar haqda danışmaq istəmirəm. Elə suallar verirlər ki, müğənnilərlə salam-sağ olumuz varsa da, qalmır. Bir-birimizin xətrinə dəyir, münasibətimizi tamamilə bitiririkş Ona görə də ən yaxşısı sual verilməməsi və bizim danışmamağımızdır”.

Qeyd edək ki, Şəbnəm və Damla arasında uzun müddətdir inciklik var.

# “Yegana tasallimiz galan körpamizdir” - Tərana Səmədova

***”Sənin yoxluğunla heç cürə barışa bilmirəm. Gün olub ki, elə bilmişəm nəfəsim dayanacaq, heç olmasa səsini eşidə bilməsəm, hələ üzünü görməyi demirəm. İnsan zülmə məhkumdur. Düz bir il geridə qaldı. Artıq 1 ildir ki, rəsmi ”yetim” sayılıram”.***



“Unikal” olay-a istinadən bildirir ki, bu sözləri instaqramda prodüser Təranə Səmədova ötən il vəfat edən anası İradə xanımla bağlı paylaşıb.

O, anasının birinci ölüm ildönümü olduğunu bildirib: ”Məni də, Sueli də boynu bükük qoyub getdin. Baxıram artıq nə onun, nə mənim gözlərimdə həmin təbəssüm yoxdur. Səninlə ürəkdən güldüyümüz kimi gülə bilmirik. Yeganə təsəllimiz gələn yeni körpədir ki, bəlkə boşluğunu doldurmaqla üzümüzü bir az güldürər.

Allah sənə rəhmət eləsin. Necə də ağır imiş bu sözləri doğma anan haqqında yazmaq. Özüm-özümə səbr diləməkdən belə yorulmuşam. Çox çətindir bu boşluğu, dərdi, yoxluğu ovutmaq. Məkanın cənnət olsun, qəbrin nurla dolsun. Allah günahlarını bağışlasın, o dünyanı versin. Onsuz da cənnət anaların ayaqları altındadır. Sən isə sadəcə məni dünyaya gətirən qadın yox, həqiqətən də əsl analıq edən, qoruyan, arxam-dayağım olan, arzularım üçün dualar edən xanım-xatun, anaların anası olmusan. Bilirsən, son zamanlar işlərim bir az çətin keçir, düşünürəm sənin dualarının əskikliyindəndir”.

# Nigar Camalın qızından yarıçılpaq fotolar



***Nigar Camalın qızından iddialı FOTOLARTanınmış müğənni Nigar Camalın futbolçu qızı Jasmin paylaşımı ilə diqqət çəkib.***

“Unikal” bizim.media-ya istinadən bildriir ki, Londonda yaşayan Jasmin qırmızı rəngli çimərlik geyimində çəkdirdiyi iddialı fotolarını sosial şəbəkə hesabında yayımlayıb.

Nigarın qızının Bakıda bağ evində lentə alınan fotoları izləyicilər tərəfindən maraqla qarşılanıb. Xatırladaq ki, Jasmin peşəkar futbolla məşğul olur.

Qeyd edək ki, Nigar Camalın Jasmindən başqa Səidə adlı qızı da var.



# "Məsələni öz reklamları üçün şişirtdilər" - Elzadan Gülyanağa

***“Bəzi insanlar elə düşündülər ki, Elza Seyidcahan maddi çətinlikdən efirə çıxıb, yox. Oraya haqsızlığa görə çıxmışdım, mənə təsir etmişdi. Bu məsələ də öz yerini tapdı. İnsan gərək həmin hadisəni yaşasın ki, məni başa düşsün”.***

Bu sözləri Əməkdar artist Elza Seyidcahan “Maqazin Plus” verilişinə açıqlamasında deyib. Sənətçi efirdə xalqdan kömək istədiyi üçün onu tənqid edən həmkarı, Xalq artisti Güylayanaq Məmmədovanın bunu gündəmdə olmaq üçün etdiyini bildirib:

”Bəziləri məsələni öz reklamları və gündəmləri üçün şişirtdilər. Eybi yox, bu da belə getsin, reklam olunsunlar. Gülyanağı da öpürəm. Bu hadisəyə görə peşman olmadım, çox insanları qazandım və öz ətrafımdan da az adam itirmədim. O insanlardan uzaqlaşmaq üçün bəhanə tapa bilmirdim, bu hadisə mənə kömək etdi. Uzun illərdir saflığımdan istifadə edənlər var idi. Səhv edirdilər, bağışlayırdım. Amma bu dərəcədə onların saxtakar olduqlarını, içlərindəki ifunəti bilmirdim. Onlar bunu gizlədə bilmədilər, üzə vurdular”.

Qeyd edək ki, E.Seyidcahanın anası ona məxsus olan obyekti keçmiş polis əməkdaşı Fərid Azayev, qardaşı Faiq Azayevə icarəyə verib. Daha sonra isə onlar icarə üçün müqavilə imzalamadan bundan imtina ediblər. Seyidcahan məkanı geri almaq istəyib, qarşı tərəf isə onları təhdid edərək, obyektin özlərinə aid olduğunu iddia ediblər.

Seyidcahan obyekt üçün 63 min manat ödəməli idi. Buna görə o, ”Səni axtarıram” proqramına qatılıb və yardım istəyib. Anası isə evini sataraq, Elzaya həmin pulu verib.

# Aygün Bəylərin bacısı efirə çıxdı: "Bir araya gələ bilmirik"

***Əməkdar artist Aygün Bəylərin bacısı Zümrüd Hümbətova ”Günün sədası” proqramına çıxıb.***

Axşam.az xəbər verir ki, o, bir vaxtlar müğənnilik etdiyini, uzun fasilədən sonra səhnəyə qayıtmaq istədiyini bildirib.

”Aygün bir mahnı bəstələyib, duet oxumuşuq. Sadəcə, bir araya gələ bilmirik. Verilişə bir çıxıb, oxuya bilmirik. Tezliklə təqdim edəcəyik. Aygün dedi ki, pandemiya da bitdi, gəl, ciddi davam edək” deyə, Zümrüd əlavə edib.

O bildirib ki, A.Bəylər böyük layihə hazırlayır, buna görə də efirə hələ ki çıxmır.





# Səfər Mehdiyevin işdən çıxarılmasına səbəb olan generalın şikayəti təmin olunmadı

***Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi Məsum Rəsulov barəsində həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı qərardan verilmiş şikayətə baxılıb.***

"Unikal" apa-ya istinadən xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsində hakim Cavid Hüseynin sədrliyi ilə keçirilən iclasda qərar elan olunub.

Bakı Apellyasiya Məhkəməsi birinci instansiya məhkəməsinin qərarını qüvvədə saxlayıb.

Xatırladaq ki, rəsmi məlumat görə, Dövlət Gömrük Komitəsinin Əməliyyat-istintaq Baş İdarəsinin rəisi vəzifəsində işləyən Rəsulov Məsum Eynalı oğlunun vəzifə səlahiyyətlərindən qulluq mənafeyinə qəsdən zidd olaraq istifadə etməklə, qabaqcadan əldə edilmiş sövdələşməyə uyğun olaraq Dövlət Gömrük Komitəsinin digər vəzifəli şəxsləri vasitəsilə "Azərterminalkompleks" Birliyi tərəfindən hüquqi xidmət, reklam işləri, təlim-tədris və texniki servis xidmətlərinin göstərilməsi adı altında "Azerbaijan Legal Consulting İnternational Services" MMC, "Nanoc" MMC, "Veqa-Servis" MMC, "Meqan Group" MMC, "Omega Servis IKO" MMC, "Delta Servis IKO" MMC və digər şirkətlərin hesabına köçürülən, müvafiq işlər görülmədən və xidmətlər göstərilmədən nağdlaşdırılaraq geri qaytarılan xüsusilə külli miqdarda dövlət büdcəsi vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən olunub.

Həmçinin Məsum Rəsulovun, müsadirəsi nəzərdə tutularaq "Azərterminalkompleks" Birliyində saxlanılan müxtəlif adda siqaret məhsullarını Silahlı Qüvvələrimizin düşmənlə təmas xəttində xidmət edən hərbi qulluqçulara paylanılması üçün Müdafiə Nazirliyinin aidiyyəti struktur bölmələrinə deyil, şəxsi münasibətdə olduğu əməkdaşına müvafiq tələblərdə rəsmiləşdirmə aparılması ilə bağlı qanunla müəyyən edilmiş prosedur qaydaları pozmaqla təhvil verərək külli miqdar dəyərində siqaret məhsullarının təyinatı üzrə çatdırılmaması nəticəsində dövlətin qanunla qorunan mənafelərinə mühüm zərər vurmasına əsaslı şübhələr müəyyən edilib.

Məsum Rəsulov 14 iyul 2022-ci il tarixdə şübhəli şəxs qismində saxlanılaraq, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda dövlət əmlakını mənimsəmə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət məsuliyyətinə cəlb edilib.

# Hulusi Akar Latviyaya səfər edəcək



***Türkiyə milli müdafiə naziri Hulusi Akar Latviyaya səfər edəcək.***

"Unikal" xəbər verir ki, səfər çərçivəsində o, latviyalı həmkarı Artis Pabrikslə görüşəcək.

Görüşdə NATO-nun Madrid Sammitinin qərarlarının icrası və müdafiə sahəsində ikitərəfli əməkdaşlığın müzakirəsi gözlənilir.

# Səhiyyə Nazirliyinin keçmiş tenderlari yenidən gündəmdə...

## Şirəliyevin zamanındakı dövlət satınalmaları ilə bağlı yoxlamalar aparılır?

***Yaxın saylarımızdan birində yazmışdıq ki, bu ilin aprelində Hesablama Palatasının Səhiyyə Nazirliyində maliyyə nəzarəti tədbirləri həyata keçirdiyi məlum olub.***

Həmin vaxt qeyd edilmişdi ki, Palata 2022-ci ilin İş Planına əsasən "Böyrəklərin xroniki xəstəliyi sahəsində Azərbaycan Respublikasında həyata keçirilən fəaliyyətin auditinə dair" səmərəlilik auditi olaraq kənar dövlət maliyyə nəzarəti tədbirini həyata keçirir.

Onu da vurğulamışdıq ki, auditin başa çatıb-çatmadığı barədə hələlik rəsmi açıqlama yoxdur, elə yoxlamalarda hansı nöqsanların aşkarlandığı barədə də hələlik bilgi verilmir. Lakin yaxın vaxtlarda yəqin ki, bu barədə xəbərlərə rast gələcəyik.



Ekspertlərin fikrincə, Səhiyyə Nazirliyində aparılan yoxlamaların ilk hədəflərindən biri Oqtay Şirəliyevin rəhbərliyi dövründəki tenderlərdir. Bu tenderlərin bir çoxu ilə bağlı mətbuatda zaman-zaman tənqidi fikirlər səsləndirilib, onların obyektivliyi və şəffaflığı şübhə altına alınıb. "Ümumiyyətlə, bir çox nazirliklərdə dövlət satınalamaları ən problemli sahələrdən biridir və sonradan aparılan yoxlamalar əksər tenderlərdə qanunvericiliyin tələblərinin pozulduğunu, eləcə də korrupsiya predmetinə çevrildiyini göstərir. Oxşar məqamların Səhiyyə Nazirliyindəki yoxlamalar nəticəsində də ortaya çıxması qaçılmazdır" - ekspertlər belə düşünürlər.

Elə internet üzərindən apardığımız kiçik araşdırmada Şirəliyevin nazir olduğu dönəmdə SN-dəki tenderlərlə bağlı çoxsayda ilginc nüanslarla qarşılaşmağa kifayət edir. Məsələn, 2019-cu ilin mayında Səhiyyə Nazirliyi ölkənin bölgələrindəki xəstəxanaların təchizatı üçün tibbi avadanlıq alınması üzrə bir gündə 4 müqavilə imzaladığı aydınlaşıb. Bu barədə dövlət satınalmaları reyestrində bildirilib.

Mayın 27-də imzalanan həmin müqavilələrin hamısı "Arash Medical Company" şirkətinə verilib. Müqavilələrin ümumi həcmi isə 6 milyon 116 min manat olub. Şərtlərə əsasən isə işlər Qazax Mərkəzi Rayon Xəstəxanası, Gəncə və Şəki psixiatriya xəstəxanaları, Şəmkir rayon Kür qəsəbə xəstəxanasında həyata keçirilməli idi.

Maraqlıdır ki, ondan cəmi bir həftə öncə - mayın 20-də Səhiyyə Nazirliyi Bakıdakı iki tibb müəssisəsinin tibbi avadanlıqlarla təchizatı üzrə də "Arash Medical Company" MMC ilə iki müqavilə imzalayıb. Həmin müqavilələr əsasında alınmış avadanlığın ümumi məbləği 5 milyon 726 min manat (3 milyon 368,2 min dollar) təşkil edirdi. Belə çıxırdı ki, bu, təkcə may ayı üzrə bağlanmış 2-ci sövdələşmədir. Və bütün müqavilələrin ümumi dəyəri 12 milyon manata yaxındır!

O da maraqlıdır ki, həmin vaxt artıq 10 ilə yaxındır sözügedən şirkətin Səhiyyə Nazirliyi tərəfindən keçirilən tenderlərin dəyişilməz qaliblərindən biri olduğu aydınlaşmışdı. Üstəlik, qısa araşdırma göstərmişdi ki, adıçəkilən şirkət sözügedən illər ərzində təkcə Səhiyyə Nazirliyi xəttilə 100 milyon dollarla ölçülən tenderləri udmuşdu! Bu isə istər cəmiyyətdə, istərsə də mediada çoxsaylı sualların ortaya çıxmasına səbəb olmuş, satınalmalarla bağlı müsabiqələrin obyektivliyi, şəffaflığı yönündə şübhələrin yaranmasına gətirib çıxarmışdı.

Yaxud, Oqtay Şirəliyevin nazir olduğu dövrə aid araşdırmalar həm də onu göstərir ki, Səhiyyə Nazirliyinin əksər müəssisələrində təmir işlərinin həyata keçirilməsi ilə bağlı elan etdiyi tenderlərin bir çoxunu "Fərid-İnşaat" adlı şirkət qazanıb. Bu isə yenə sual doğurub: adıçəkilən təmir-tikinti ilə bağlı elan olunan əksər tenderlərin qalibi niyə məhz "Fərid-İnşaat" şirkəti olur?!

Belə nümunələrin sayını artırmaq olar. Biz hələ cəmi 1-2 aylıq şirkətlərin iri məbləğlərdə tenderləri udmasını demirik. Məsələn, 2021-ci ildə Səhiyyə Nazirliyinin "İctimai Səhiyyə və İslahatlar Mərkəzi" Publik Hüquqi Şəxsi tərəfindən keçirilən tender müsabiqəsinin (kotirovka sorğusu) qalibi "Satko FM" adlı MMC olub. Bu şirkət 60 növ müxtəlif mövzular üzrə yeni protokolların işlənilib hazırlanması, korrektə edilməsi və tərcümə xidmətini həyata keçirmək üçün 63 min 150 manatlıq ödəniş qazanıb. Ancaq o da aydın olub ki, "Satko FM" MMC 05.07.2021-ci il tarixində dövlət qeydiyyatına alınıb, "İctimai Səhiyyə və İslahatlar Mərkəzi" isə müsabiqə elanını avqust ayının 25-də elan edib, deməli, tender müabiqəsinin qalibi olan MMC tender elanının verilməsindən cəmi ay yarım əvvəl yaranıb! Üstəlik, adıçəkilən şirkət barədə açıq internet resurslarında heç bir məlumata rast gəlmək mümkün olmayıb. Halbuki, "Dövlət satınalmaları haqqında" Qanunun 6-cı maddəsində malgöndərənlərin (podratçıların) ixtisasına dair tələblər yer alıb. Həmin maddənin 6.2.1-ci bəndində açıq şəkildə yazılır ki, satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması lazımdır.

Bir sözlə, Oqtay Şirəliyevin zamanında Səhiyyə Nazirliyinin tenderləri ilə bağlı daim mübahisəli məqamlar ortaya çıxıb. Odur ki, indi həmin məqamların araşdırma predmetinə çevrilməsi ehtimalı tamamilə yüksəkdir. Belə araşdırmalar aparılacağı təqdirdə isə kifayət qədər nöqsanların aşkarlanacağını elə yuxarıdakı nümunələrdən də görmək mümkündür...

***Murad İbrahimli***

# Anti-terror əməliyyatları yenidən gündəmdə

## Erməni silahlı birləşmələri Qarabağ ərazisində qaldıqca hər an yenidən döyüşlərin başlama riski var

***Son günlər Ermənistan tərəfi sərhəddə təxribat xarakterli addımlar atmaqla əldə olunan razılaşmanı pozmaqda davam edirlər. Bir neçə gün öncə erməni silahlı birləşmələri tərəfindən ümumilikdə bir sutkada 9 dəfə təxribat xarakterli silahlı insident törədilib. Bunlardan 2-si Azərbaycan-Ermənistan dövlət sərhədinin Qarakilsə rayonunun Saybalı yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərdən Ordumuzun Laçın rayonunun Minkənd yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atəşə tutmaqla baş vermişdi.***




Digər 7 insident isə Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Tərtər, Ağdam, Xocavənd və Xocalı rayonları istiqamətlərində yerləşən mövqelərini fasilələrlə müxtəlif çaplı silahlardan atəşə tutmaqla qeydə alınıb. Bütün hallarda Ordumuzun bölmələri tərəfindən görülən adekvat cavab tədbirləri nəticəsində qarşı tərəf susdurulub.

Lakin buna baxmayaraq, qarşı tərəf təxribat xarakterli əməllərindən geri çəkilmək istəmir. Görünən odur ki, Rusiyalı sülhməramlılar da öz vəzifə borclarını yerinə yetirmirlər. Ölkə başçısı da 6 ayın yekunlarına həsr olunmuş toplantıda öz qəti fikrini bildirdi. Ali Baş Komandan söylədi ki, Rusiya tərəfinin Müdafiə Nazirliyinin rəsmisi Azərbaycanın Müdafiə Nazirliyinə söz vermişdi ki, iyun ayında onlar Qarabağdakı qanunsuz erməni silahlı dəstələrini oradan uzaqlaşdıracaqlar. Ekspertlər də hesab edirlər ki, son təxribatlar bütün "qırmızı xətti" keçmək deməkdir. Bu səbəbdən də Azərbaycanın anti-terror əməliyyatlarına başlayacağı bildirilir.

Heç də təsadüfi deyil ki, Dövlət Təhlükəsizlik Xidmətinin rəisi, general polkovnik Əli Nağıyev də bu ərəfədə mühüm və olduqca sərrast bir mövqe ifadə etdi. O Qırğızıstanın Çolpan-Ata şəhərində Türkdilli Dövlətlərin Xüsusi Xidmət Orqanları Konfransının XXIV iclasında çıxışında bildirib ki, bəzi qonşu ölkələrin ərazisindən bir sıra radikal dairələr regionda və Azərbaycan daxilində mövcud olan sabitliyin və əmin-amanlığın pozulmasına yönəlmiş fəaliyyəti mütəmadi davam etdirirlər. Əli Nağıyev, Ermənistandakı revanşist qüvvələrin təxribat niyyətlərindən hələ də əl çəkməməsi və bu ölkənin müxalifətinin Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması prosesinə xələl gətirilməsi üçün ciddi-cəhdlə çalışmasının dərin təəssüf hissi yaratdığını nəzərə çatdırıb. O bildirib ki, respublikamızın xüsusi xidmət orqanları tərəfindən daim ayıq-sayıqlıq qorunmaqla belə məqamların səbəb ola biləcəyi hər cür neqativ halların qarşısı qətiyyətlə alınacaqdır.

"Unikal"a açıqlamasında hərbi ekspert Ədalət Verdiyev də maraqlı məqamlara toxunub. Ekspert deyib ki, bir gündə erməni silahlı birləşmələri tərəfindən 9 dəfə təxribat xarakterli silahlı insidentin törədilməsi Ermənistan tərəfinin və onları dəstəkləyən sülhməramlı kontingentin komandanlığının birgə bəyanatın şərtlərinə əməl etmək niyyətində olmadıqlarını nüamyiş etdirir. Onun sözlərinə görə, bu cür addım Azərbaycan tərəfini daha təsirli və adekvat addımlar atmağa vadar edir: "Görünən odur ki, Azərbaycan tərəfi düşməni anladıqları dildə başa salmalı olacaq. Azərbaycan Ordusunun bu dəfə istənilən cavabı həm separatçı quruma, həm də Ermənistanın mövcud hakimiyyətinə çox ağrılı nəticələr vəd edir. Rusiyanın Qarabağda müvəqqəti yerləşdirdiyi sülhməramlı qüvvələrin komandanı general-mayor Andrey Volkovun fəaliyyəti isə tamamilə qeyri-qənatbəxşdir və bu fəaliyyət Kremlin Qrabağdakı sülhməramlı niyyətini böyük şübhə altına alır. Azərbaycana qarşı ərazi iddiası və Ordumuzun şəxsi heyətinin təhlükəsizliyinə təhdid kimi dəyərləndirilən düşmənin atəşkəs pozuntularının qarşısını almaq üçün atəş açılan hər bir düşmən mövqeyi darmadağın edilməlidir. Həmin mövqelərdə Azərbaycan Ordusunun şəxsi heyəti və üçrəngli bayrağımız əbədi olaraq yerləşdirilməlidir. Bu çətin və şərəfli vəzifəni yerinə yetirəcək qəhrəman Ordumuzun daim yanındayıq".

Onu da qeyd edək ki, rusiyalı hərbi ekspert, "Milli müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko pravda.az-a açıqlamasında mühüm məqamlara toxunub. O bildirib ki, Ermənistan hərbçilərinin, eləcə də Qarabağ ərazisində olan qanunsuz erməni silahlı birləşmələrin, separatçıların silahlı təxribatları sülh istiqamətində gedən danışıqlar üçün daimi təhdid və təhlükə mənbəyidir: "10 noybar 2020-ci ildə imzalanmış üçtərəfli bəyanata əsasən, erməni silahlı birləşmələri Qarabağ ərazisini tamamilə tərk etməli idilər. Lakin biz indi görürük ki, İrəvan bu prosesi hər vəchlə ləngitməyə çalışır. Cəmi bir neçə həftə bundan əvvəl ilk dəfə olaraq Ermənistan rəsmiləri Azərbaycan ərazisində, yəni Qarabağda Ermənistan silahlı qüvvələrinə məxsus müqaviləli xidmət edən hərbçilərin olması faktını etiraf etdilər".

İ.Korotçenko qeyd edib ki, Prezident İlham Əliyevin əsas kimi irəli sürdüyü 5 prinsip əsasında sülh danışıqlarının aparılması və sülh müqaviləsinin bağlanması son dərəcə zəruridir: "Düşünürəm ki, bu şərtlərdən ən əsası silahlı ermənilərin Qarabağ ərazisindən dərhal çıxarılmasıdır. Erməni silahlı birləşmələrinin orada qalacağı müddətdə hər an yenidən döyüşlərin başlama riski var. Biz ümid edirik ki, Moskva və Bakının birgə səyləri ilə rəsmi İrəvanın üçtərəfli bəyanatlar imzalamaqla üzərinə götürdüyü bütün öhdəliklərin tam yerinə yetirilməsinə nail olunacaq".

***Z.Məmmədli***



# "Əhalinin gəlirləri iqtisadi artım tempini üstələyir" - Prezidentin köməkçisi

***Azərbaycanda 2018-2022-ci illərdə əməkhaqqının ÜDM-dəki payı 12,7 faizdən 17,1 faizə yüksəlib.***

"Unikal"ın məlumatına görə, bu fikirləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirovun "Prezident İlham Əliyev - zamanı qabaqlayan lider" sərlövhəli analitik məqaləsində yer alıb.

N.Əmirov qeyd edib ki, bu ilin ilk altı ayında hər nəfərə düşən ÜDM 5,9 faiz artdığı halda, əhalinin hər nəfərinə düşən nominal gəlirlər 19,4 faiz artıb: "Hətta inflyasiyanı da nəzərə alanda aydın görmək olur ki, əhalinin real gəlirləri iqtisadi artım tempini üstələyir. Deməli, iqtisadi artımın nəticələrindən insanların faydalanması getdikcə daha da çoxalır. Bunun nəticəsidir ki, 2018-2022-ci illərdə əməkhaqqının ÜDM-dəki payı 12,7 faizdən 17,1 faizə yüksəlib. Azərbaycan dövlətinin sosial mahiyyətini göstərən əsas amillərdən biri də odur ki, median əməkhaqqı orta əməkhaqqından, minimum əməkhaqqı isə median əməkhaqqından üstün templə artır: 2018-2022-ci illərdə orta əməkhaqqı 41 faiz, median əməkhaqqı 86 faiz, minimum əməkhaqqı isə 2,3 dəfə artıb. Buradan çıxan əsas nəticə odur ki, əhalinin daha az gəlirli hissələrinin əməkhaqqıları daha üstün templə çoxalır. Bu bir tərəfdən yoxsulluğun azalması, digər tərəfdən isə orta təbəqənin güclənməsi anlamına gəlir. Təkcə əməkhaqqı deyil, həm də sosial ödənişlərdə artım əhalinin daha çox qayğıya ehtiyacı olan kəsiminə hədəflənib. Belə ki, son dörd ildə minimum pensiyalar 110 manatdan 240 manata çatdırılıb, orta pensiya 75 faiz, sosial müavinətlər və təqaüdlər isə 3,5 dəfə artıb. Sosial siyasətdə diqqət yetirilən daha bir məqam şəhid ailələri, müharibə əlilləri, müharibə iştirakçılarının sosial müdafiəsidir. Bu kateqoriyadan olan şəxslərin mənzil və avtomobillə təminatı, məşğulluq, sosial-psixoloji dəstək və reabilitasiya proqramlarına cəlb edilməsi istiqamətində böyük işlər görülmüşdür".

Prezidentin köməkçisi qeyd edib ki, aşağı neft qiymətləri və ticarət tərəfdaşlarımızda resessiya səbəbindən 2015-ci ildə baş vermiş böhrandan çıxdıqdan sonra və 2018-ci ildə iqtisadi artım bərpa edildikdən bəri üç sosial islahat paketi dörd milyon vətəndaşımızı əhatə edib. Onlar üçün illik 6 milyard manat əlavə dövlət vəsaiti ayrılıb.

N.Əmirov qeyd edib ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi siyasətin mühüm istiqamətlərindən biri ərzaq təhlükəsizliyinin təmin edilməsidir:

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2003-cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərmanı aqrar sektorda islahatların ikinci mərhələsinin başlanmasına start vermiş, eyni zamanda, ərzaq təhlükəsizliyinin dayanıqlılığının təmin olunmasına və əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə xidmət etmişdir. Aqrar sektorda islahatların ikinci mərhələsinə başlamaqla, kənd təsərrüfatının inkişafında ən müasir, mütərəqqi metodlar tətbiq olunmuşdur. Görülən tədbirlər nəticəsində yerli istehsal potensialı güclənmiş və ərzaq məhsullarının rəqabətqabiliyyətliliyi yüksəlmişdir. Nəticədə ölkəmizin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə yaxşılaşmışdır. Belə ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi vaxt ət və süd məhsulları ilə ölkənin özünütəminetmə səviyyəsi 30-35 faiz təşkil edirdisə, 2020-ci ildə bu məhsullar üzrə özünütəminetmə səviyyəsi müvafiq olaraq 84,5 və 83,5 faizə qədər artmışdır. Həmin dövrdə ölkənin kartofa olan tələbatının ödənilməsində idxal mühüm paya sahib idisə, 2020-ci ildə kartofla özünütəminetmə səviyyəsi 90,6 faiz olmuşdur. Bütün növ tərəvəz ilə özünütəminetmə səviyyəsi 110,4 faiz, meyvə və giləmeyvə üzrə isə 116,3 faiz təşkil etmişdir. Qarşıdakı illərdə ərzaqla özünütəminetmə səviyyəsi daha da yaxşılaşacaqdır. Şübhəsiz ki, uzun illər ərzində işğal altında qalan torpaqların azad olunması ölkənin ərzaqla özünütəminetmə səviyyəsinin artırılmasına töhfə verəcəkdir. Azərbaycanın ərzaq təhlükəsizliyi sahəsindəki nailiyyətləri nüfuzlu beynəlxalq qurumların hesabatlarında da əksini tapır və son illər ərzində ölkəmizin ərzaq təhlükəsizliyi göstəricisi əsaslı şəkildə yüksəlib".

# Prezidentdən 3 milyonluq sərəncam



***Prezident İlham Əliyev Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Bakı şəhərinin Nizami rayonu ərazisində avtomobil yollarının yenidən qurulması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 3,0 (üç) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Müdafiə Nazirliyi bir gündə 2 açıqlama yaydı




***Azərbaycan Ordusunun bölmələrinin Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsi istiqamətində guya atəş açması barədə erməni mətbuatında yayılan məlumat yalandır və həqiqəti əks etdirmir.***

Bu barədə "Unikal"a Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən məlumat verilib.

Azərbaycan-Ermənistan dövlət sərhədində Ordumuzun bölmələri tərəfindən guya qarşı tərəfin mövqeləri istiqamətində atəş açılması barədə erməni mətbuatında yayılan məlumat yalandır.

"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi daha bir məlumat yayıb. Bildirilib ki, bu məlumatlar dezinformasiya xarakteri daşıyır.

# Növbəti tədris ili üçün tətil günləri açıqlandı



***Ümumi təhsil müəssisələrində dərs məşğələləri sentyabrın 15-də başlayıb, iyunun 14-də başa çatacaq.***

"Unikal" xəbər verir ki, bu barədə təhsil naziri Emin Əmrullayev müvafiq əmr imzalayıb.

Qeyd olunub ki, birinci yarımil - 15 sentyabr - 26 yanvar; ikinci yarımil - 1 fevral - 14 iyun.

Dərs ili ərzində aşağıdakı tətillər müəyyən edilir:
5 gün payız tətili (16-20 noyabr);
5 gün qış tətili (27-31 yanvar).
İbtidai siniflər üçün 5 günlük əlavə yaz tətili (1-5 may).

# Elm və Təhsil Nazirliyi yaradıldı



***Prezident İlham Əliyev "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Fərman imzalayıb.***

"Unikal" xəbər verir ki, elm və təhsilin qarşılıqlı əlaqəsinin möhkəmləndirilməsi və bu sahələrdə idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Təhsil Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi (bundan sonra - Nazirlik) adlandırılıb.

Elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə və təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi və istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlər Nazirliyə həvalə edilib.

Nazirliyin yanında aşağıdakı Agentliklər yaradılıb:

Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi;

Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi.

Azərbaycan Milli Elmlər Akademiyasının Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının siyahısı təsdiq edilib.

Azərbaycan Milli Elmlər Akademiyasının Milli Azərbaycan Tarixi Muzeyi, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi və Hüseyn Cavidin Ev Muzeyi əmlakları ilə birlikdə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tabeliyinə verilib.

Nazirlər Kabineti üç ay müddətində Nazirliyin yeni əsasnaməsinin və strukturunun, habelə bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri ilə yaradılan Agentliklərin əsasnamələrinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, bu Fərmanın 1-5-ci hissələri nəzərə alınmaqla, elm və təhsil sahəsində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.

Nazirliyin Aparatının və strukturuna daxil olan qurumların işçilərinin ümumi say həddini, habelə Nazirliyin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısını təsdiq etməli və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Nazirliyin tabeliyinə verilən elmi müəssisə və təşkilatlarının, habelə digər qurumlarının balansında olan dövlət əmlakının Nazirliyin balansına verilməsi ilə bağlı tədbirlər görməlidir.

Bu Fərmanın 4-cü və 5-ci hissələri nəzərə alınmaqla, Azərbaycan Milli Elmlər Akademiyasının yeni strukturunu və işçilərinin say həddini üç ay müddətində təsdiq etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verməlidir.

Bu Fərmanın 3.1-ci və 3.2-ci bəndləri, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla zəruri maliyyə və maddi-texniki təminat məsələlərini həll etməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Nazirlik bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq tabeliyinə verilən qurumların sayının optimallaşdırılması və fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində təkliflərini altı ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Azərbaycan Milli Elmlər Akademiyası bu Fərmanın 2 -ci, 4-cü və 5-ci hissələri nəzərə alınmaqla, Ümumi Yığıncağında qəbul edilmiş yeni Nizamnaməsini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli, bu Fərmandan irəli gələn digər məsələləri həll etməlidir.

Mədəniyyət Nazirliyinə bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

# Mikayıl Cabbarova yeni vəzifə verildi

***Azərbaycan ilə Türkmənistan arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın tərkibinə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev sərəncam imzalayıb.

Sərəncama əsasən, Azərbaycanın Baş nazirinin birinci müavini komissiyanın tərkibindən çıxarılıb və onun yerinə Azərbaycanın iqtisadiyyat naziri əlavə edilib.

Həmçinin iqtisadiyyat nazirinin müavini də komissiyanın tərkibindən çıxarılıb.

Qeyd edək ki, Xarici İşlər Nazirliyi komissiyanın Azərbaycan tərəfindən tərkibinə edilmiş dəyişiklik barədə Türkmənistan tərəfinə müvafiq bildiriş göndərəcək.

# Maska taxın, özünüzü qoruyun! - TƏBİB-dən çağırış

***Son aylar bütün dünyada COVID-19 virusuna yoluxma hallarında ciddi artım var. Mövcud vəziyyət bizim ölkəmizə də təsirsiz ötüşmədi. Azərbaycanda son həftələrdə yoluxma hallarında ciddi artım müşahidə edirik. Hazırda ölkəmizdə təşvişə səbəb olacaq vəziyyət yoxdur.***

Bu sözləri TƏBİB-in Strateji inkişaf departamentinin rəhbəri Yaqut Qarayeva bildirib.

Onun sözlərinə görə, epidemioloji vəziyyət sabitdir və nəzarət altındadır. TƏBİB rəsmisi qeyd edib ki, buna baxmayaraq, risk qrupuna aid olan şəxslər özlərini qorumalıdır.

"Qapalı məkanlarda, kütləvi insanların toplandığı yerlərdə maskadan istifadə edilməsini, məsafənin saxlanılmasını və əl gigiyenasına əməl edilməsini tövsiyə edirik. Eyni zamanda koronavirusa qarşı 3-cü doza peyvənd vaxtları gələn şəxslərin payız ayları öncəsi vaksin vurdurması vacibdir" - Yaqut Qarayeva vurğulayıb.

# Bakıda XİN rəhbərlərinin üçtərəfli görüşü olacaq



***"Yaxın günlərdə Türkiyə, Gürcüstan və Azərbaycan xarici işlər nazirlərinin üçtərəfli görüşü keçiriləcək".***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu gürcüstanlı həmkarı İlya Darçiaşvili ilə birgə keçirdiyi brifinqdə deyib. Çavuşoğlu, görüşün Azərbaycanda keçiriləcəyini qeyd edib.

## ELAN

**Salmanova Pərvanə Natiq qızının adına verilmiş, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi tərəfindən 04 oktyabr 2017-ci il tarixdə təsdiq olunmuş N1701 seriyalı şəhadətnamə itdiyi üçün etibarsız sayılır.**

************

**"ABAD" Azərbaycan Respublikası, Beyləqan rayonu, Aşqallar kən. Kəndli fermer təsərrüfatına məxsus möhür itdiyi üçün etibarsız sayılır.**

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700

# Prezidentin məmurlara son xəbərdarlığının şifrələri

## Qanunsuzluqlardan əl çəkməyən vəzifə sahiblərinin yeni həbs dalğası başlaya bilər

***Yola salmaq üzrə olduğumuz həftə dövlət rəhbəri İlham Əliyev Göygöl, Masallı və Lerik rayonlarına təyin olunmuş İcra Hakimiyyəti başçıları ilə görüşündə ciddi tövsiyyə və kəskin xəbərdarlıqlarla çıxış edib. Prezident bildirib ki, bir neçə keçmiş icra başçısı cinayət məsuliyyətinə cəlb edilib, bəzilərinin hökmü verilib, bəzilərinin işləri məhkəmədədir: "Bu onu göstərir ki, heç kim qanundan üstün ola bilməz. Mən bütün icra başçılarını vəzifəyə təyin edərkən göstərişlərimdən biri o idi ki, korrupsiyaya, rüşvətxorluğa qarşı biz amansız mübarizə aparmalıyıq və icra başçıları burada nümunə olmalıdırlar. Əfsuslar olsun ki, bəziləri əyri yolla gediblər və bu gün bunun acısını çəkirlər. Bu, hər bir dövlət məmuru üçün dərs olmalıdır".***

İdarəetmədə çox ciddi islahatlar, böyük təmizləmə işləri aparıldığını qeyd edən Prezident bu işlərə rəvac verən, bəzi dövlət məmurlarını, yerli icra orqanlarını qanunsuz işlərə təhrik edən insanların hakimiyyətdən uzaqlaşdırıldığını bildirib və xəbərdarlıq edib: " Dövlət orqanlarının nümayəndələrinə deyirəm, eyni zamanda, qanunsuz işlərlə məşğul olmaq istəyən insanlara deyirəm: Əl çəkin bundan! Cəzalandırılacaqsınız və cəzalandırılırlar. Biz kiminsə tamahına, kiminsə şəxsi maraqlarına görə ölkəmizin uğurlu inkişafına kölgə sala bilmərik. Qanunsuz işlərlə məşğul olmaq istəyənlər cəzalandırılacaq".



Bundan əlavə, dövlət başçısı yerli məmurlardan gözləntilərini və tələblərini də dilə gətirib: daim insanlarla təmasda olmaq; kənd camaatının qayğıları ilə yaşamaq, onları narahat edən problemləri onların dilindən eşitmək və imkan daxilində bu problemləri həll eləmək; elə məsələlər var ki, onlar dövlət orqanları tərəfindən həll olunmalıdır, bu səbəbdən də aidiyyəti dövlət orqanlarına - Prezident Administrasiyasına, Nazirlər Kabinetinə və s. müraciət etmək; sosial ədalət prinsipinə əməl eləmək, şəhid ailələrinə xüsusi diqqət göstərmək; müharibə əlillərinin işlə təminatına dair tədbirlər həyata keçirmək; rayonların inkişafı ilə bağlı təşəbbüskar davranmaq...

Ölkə başçısı haqlı olaraq vurğulayıb ki, bəzi hallarda yerli icra orqanları bir qədər tənbəllik edirlər, ya gözləyirlər ki, dövlət tərəfindən hansısa layihələr icra ediləcək, ya da ki, sahibkar gəlib onların qapısını döyəcək. Belə olan halda, bəzi hallarda sahibkarlar qarşısında müəyyən qanunsuz, əsassız tələblər irəli sürülür. "Siz özünüz sahibkarları rayonlarınıza cəlb etməlisiniz, həm də yerli sahibkarları, həm də xarici sahibkarları..." deyə Prezident bildirib, bu tapşırıq adları çəkilən üç rayonun yeni icra başçılarına yönəlsə də, şübhəsiz ki, əslində bütün icra başçıları üçün keçərlidir.

Dövlət rəhbəri təəssüflə vurğulayıb ki, əvvəlki illərdə bəzi dövlət məmurları və bəzi sahibkarlar tərəfindən böyük torpaq sahələri hasarlanıb, qanunsuz zəbt edilib: " Kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var". Prezident onu da vurğulayıb ki, torpaqların qanunsuz zəbt edilməsi prosesi araşdırılmalıdır və belə qanunsuz əməllərə son qoyulmalıdır.

Ölkə başçısı yeni icra başçılarına ictimai nəzarətdən çəkinməməyi də tövsiyyə edib: "İctimai nəzarət, ictimaiyyətin fəallığı, mövcud olan problemlərə dövlət orqanlarının diqqətinin cəlb edilməsi sizin işinizə kömək göstərəcək. Ona görə insanlarla bir yerdə olmalısınız, ictimaiyyətlə bir yerdə olmalısınız və biz ancaq bu yolla ölkəmizi inkişaf etdirə bilərik".

Göründüyü kimi, Prezident növbəti dəfə dövlət məmurları, özəlliklə də icra başçıları qarşısında konkret tələblər qoymaqla yanaşı, hələ də qanunsuz əməllərdən çəkinməyən rayon rəhbərlərinə, ümumiyyətlə, vəzifəsindən asılı olmayaraq bütün məmurlara kifayət qədər sərt xəbərdarlıq yollayıb. Prezidentin "köhnə hamam, köhnə tas" prinsipi ilə işləyən vəzifəli şəxslərə xitabla söylədiyi "Əl çəkin bundan! Cəzalandırılacaqsınız!" sözləri ciddi mesajdır və yeni məmur həbslərinin ola biləcəyini söyləmək üçün əsas verir.

Əgər müəyyən vəzifə sahibləri dövlət rəhbərinin son xəbərdarlığından da lazımi nəticə çıxarmazlarsa, vətəndaşa xidmətin keyfiyyətini yüksəltmək əvəzinə, özlərinin, qohum-əqrəbalarının maraqlarını qorumaqla məşğul olarlarsa, biz qarşıdakı dövrdə ayrı-ayrı məmurların elə kabinetlərindəcə, cinayət başındaca yaxalanmalarının şahidi ola bilərik. Bir sözlə, Prezident açıq şəkildə bəyan etdi ki, öz vəzifə borclarını layiqincə yerinə yetirməyi yox, qanunvericiliyin tələblərini, xalqın və dövlətin ali mənafelərini ayaq altına atmağı üstün tutmağa davam edənlər üçün hüquq qarşısında cavab verməkdən və cəzalandırılmaqdan başqa yol qalmayıb!

Bir sözlə, bu gün ölkə başçısının xəbərdarlıqlarından, tövsiyyələrindən gərəkli nəticəni çıxarmayanlar sabah çox peşman olacaqlar. Sonrakı peşmançılığın faydasını isə hələ heç kim görməyib...

***Toğrul Əliyev***

# Emin Əmrullayev əmr imzaladı

## 10 məktəbdə inklüziv siniflər təşkil ediləcək



***Təhsil naziri Emin Əmrullayev "İnklüziv təhsilin əhatə dairəsinin genişləndirilməsi barədə" əmr imzalayıb.***

"Unikal" xəbər verir ki, əmrə əsasən, "2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrasını təmin etmək məqsədilə 2022-2023-cü tədris ilində Bakı şəhəri 39, 84, 265, 300, Gəncə şəhəri 8, Sumqayıt şəhəri 25, Xaçmaz şəhəri 6, Ağcabədi şəhəri 5, Qəbələ şəhəri 3 nömrəli tam orta məktəblərdə və Xırdalan şəhəri 3 nömrəli məktəb-liseydə inklüziv siniflər təşkil ediləcək.

Qeyd edək ki, 2015-ci ildən başlayaraq Təhsil Nazirliyi tərəfindən ölkədə inklüziv təhsilin inkişafı istiqamətində pilot layihələr həyata keçirilir, qanunvericilik səviyyəsində islahatlar aparılır və müəllim hazırlığı üzrə proqramlar yenilənir.

# Polisi Zakir Qaralovun şirkətini cərimələdi




***"Akkord Hydrotechnical Construction Company" MMC dövlət yol polisinin sorğusuna cavab verməyib.***

"Unikal" xəbər verir ki, Nərimanov Rayon Polis İdarəsinin Dövlət Yol Polisi Şöbəsi bu şirkət barəsində inzibati protokol tərtib edərək Nərimanov Rayon Məhkəməsinə göndərib.

Şirkət İnzibati Xətalar Məcəlləsinin 347-ci maddəsinin tələblərini pozmaqda ittiham olunur.

Həmin maddəyə görə, hüquqi şəxsin mülkiyyətində və ya istifadəsində, yaxud dövlət qurumunun istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsinə görə - vəzifəli şəxslər yüz əlli manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimə edilir.

Qeyd edək ki, mətbuatda yayılan və təkzib olunmayan məlumata görə, "Akkord Hydrotechnical Construction Company" MMC keçmiş Baş prokuror Zakir Qaralova məxsusdur.

Dövlər vergi borcu barədə məlumata görə, sözügedən şirkətin dövlətə 4 milyon 412 min 334 manat borcu var.

# Dövlətə borclu olan şirkət ölkədən qanunsuz pul çıxarıb



***Azərbayacan Mərkəzi Bankı "Qlobal Fruit Group" Məhdud Məsuliyyətli Cəmiyyəti barəsində məhkəməyə müraciət edib.***

Mərkəzi Bank "A+CO" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 430.4-cü maddəsi ilə cərimə protokolu tərtib edib, Nərimanov Rayon Məhkəməsinə göndərib.

Bu maddə İXM-də valyuta tənzimi qaydaları pozulmasına görədir.

Belə ki, avans yolu ilə ödənilmiş valyuta vəsaitinin müqabilində müəyyən edilmiş müddətlərdə müvafiq mallar idxal edilmədikdə, işlər görülmədikdə və ya xidmətlər göstərilmədikdə ödənilmiş valyuta vəsaitinin xaricdən geri qaytarılmamasına görə, hüquqi şəxslər inzibati xətanın obyekti olmuş valyuta vəsaiti məbləğinin 20 faizindən 30 faizinədək məbləğdə cərimə edilir.

Qeyd edək ki, "Qlobal Fruit Group"un dövlət büdcəsinə 1 milyon 612 min manatdan çox borcu var.



## Azərbaycan-Rusiya Birgə Komissiyasının 22-ci görüşü keçirildi

***"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Samur transsərhəd çayının su ehtiyatlarının səmərəli istifadəsi və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" əsasən yaradılan Samur transsərhəd çayının su ehtiyatlarının bölünməsi üzrə Azərbaycan-Rusiya Birgə Komissiyasının 22-ci görüşü 26-27 iyul 2022-ci il tarixində Qusar şəhərində keçirilib.***

"Unikal" xəbər verir ki, Azərbaycan-Rusiya Birgə Komissiyasının Azərbaycan tərəfindən həmsədri, Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən iclasda Səhmdar Cəmiyyətin əməkdaşları Elçin Məmmədov, Elxan Hüseynov və komissiyanın üzvləri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin, Fövqəladə Hallar, Rəqəmsal İnkişaf və Nəqliyyat, Ekologiya və Təbii Sərvətlər Nazirliklərinin eləcədə Dövlət Sərhəd Xidmətinin və Qusar Rayon İcra Hakimiyyətinin nümayəndələri iştirak ediblər.

Keçirilən görüşdə bir sıra məsələlər müzakirə edilmişdir. Belə ki, Samur çayının su ehtiyatlarının iki ölkə arasında bölgüsü və monitorinqi, Samur Hidroqovşağının birgə istismarı və digər məsələlərə baxılmışdır. Müzakirələrin nəticəsində görüləcək tədbirlər barədə birgə müvafiq protokol imzalanmışdır.

## Daha 500 şəhid ailəsi və qaziyə ev veriləcək

***Yaxın iki ay ərzində 500 şəhid ailəsi və qazi fərdi evlə, eyni zamanda mənzillə təmin olunacaq.***

"Unikal" xəbər verir ki, bunu Sosial Xidmətlər Agentliyinin İdarə heyətinin sədri Vüqar Behbudov bildirib.

Onun sözlərinə görə, bu il ümumilikdə 1500 şəhid ailəsi və qazinin mənzil və fərdi evlə təmin olunması nəzərdə tutulub.

"Artıq 600 nəfərə ev və mənzillər təqdim olunub. Yaxın iki ayda növbəti 500 nəfər də mənzillə təmin olunacaq. Bu il 160 müharibə əlilinin avtomobillə təmiantı nəzərə tutulub. Artıq 100 nəfərə avtomobillər təqdim olunub. Yaxın vaxtlarda 60 nəfərə də avtomobillər veriləcək", - deyə qurum rəhbəri vurğulayıb.

# "Karantin qaydalarında müəyyən sərtləşmə ola bilər"

## Adil Qeybulla: "Nə qədər ki, pandemiyanın bitməsi rəsmi elan olunmayıb, deməк onun içərisində yaşayırıq"



***Tanınmış həkim, tibb elmləri doktoru, professor Adil Qeybulla "Unikal"a müsahibə verib. Həkim koronavirusa yoluxma sayının artmasından, virusun nə zaman bitəcəyindən, ölkəmizdə meymunçiçəyinə yoluxma hallarının qarşısının alınması üçün görülən işlərdən, icbari tibbi sığorta sisteminin çatışmazlıqlarından və başqa məsələlərdən danışıb.***

***-Son zamanlar dünyanın bir sıra ölkələrində, eləcə də Azərbaycanda koronavirusa yoluxma sayı sürətlə artır. Yoluxma hallarının artması nə ilə bağlıdır?***

-Koronavirusa yoluxmanın artması bütün dünyada müşahidə olunur. Virusun bir neçə mövsüm davam etməsi, pik dalğalar yaratması, mutasiyanın davam etməsi belə nəticəyə gəlməyə əsas verir ki, pandemiya sona yaxınlaşır. Hazırda virusun mutasiyası davam edir və yoluxuculuq əmsalı artır. Virus yaşamaq üçün yer axtarır. Koronavirusa yoluxma sayının artması bununla bağlıdır. Amma virusun öldürücülük qabiliyyəti aşağı düşür. Bu, pandemiyanın sona çatmağa doğru getdiyini göstərir. Düşünürəm ki, bu, təhlükəli vəziyyət deyil. Ola bilər ki, indiki halda müəyyən qərarlar qəbul olunsun. Bura qapalı məkanlarda maska taxılması, kütləvi tədbirlərlə bağlı müəyyən dəyişikliklər və s. daxildir. Buna baxmayaraq, vəziyyətin elə də acınacaqlı olduğunu düşünmürəm. Pandemiya artıq sona doğru gedir. Amma Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), xəstəliklərə nəzarət və profilaktika mərkəzləri bununla bağlı birmənalı rəy verməyiblər. Məntiq və elm isə xəstəliyin sona doğru getdiyini deyir.

***-Gündəlik yoluxma hallarının artması fonunda belə fikirlər səsləndirilir ki, payızda yenidən qapanmalar ola bilər. Hansı qadağaların tətbiq olunması gözlənilir?***

-Ola bilər ki, karantin qaydalarında müəyyən sərtləşmə olsun. Çünki karantin hələ bitməyib. İnsanlar elə bilirlər ki, pandemiya sona çatıb. Nə qədər ki, pandemiyanın bitməsi rəsmən elan olunmayıb, demək onun içərisində yaşayırıq. Digər tərəfdən, karantin qaydaları həddindən artıq yumşaldılıb. Amma epidemoloji vəziyyətə görə sərtləşdirilə bilər. Hansı epidemoloji vəziyyətin olmasından asılı olmayaraq, birmənalı şəkildə demək olar ki, pandemiya sonuna yaxınlaşır. Düşünürəm ki, sərt qapanmalar olmalı deyil. Belə ki, iqtisadiyyat, təhsil bundan xeyli ziyan çəkdi. Ola bilər ki, qapalı mühitdə maska taxılması yenidən tətbiq olunsun, kütləvi tədbirlərdə müəyyən məhdudiyyətlər edilsin. Çox sərt tədbirlərin olacağını düşünmürəm.

***-Pandemiyanın sərt yayıldığı dönəmlərdə belə fikirlər səsləndirilirdi ki, hava isinəndə virus yox olacaq. İndi yay fəsli olmasına baxmayaraq, virusun artması müşahidə olunur. Bunun səbəbi nədir?***

-Proses artıq virusun yox olmasına doğru gedir. Virus ya zəifləmiş formada orqanizmdə adaptasiya edib qalacaq, ya da yoxa çıxacaq. Havanın isinməsinin, günəş şüalarının virusa öldürücü təsiri var. Virus əgər bir səthə düşərsə, günəş şüaları altında uzun müddət tab gətirə bilməz. Amma virus bayırda artıb-çoxalmır, insan orqanizmində çoxalır. Bir insandan digərinə keçir və çox asanlıqla yaşayır.

***-Özünüz də qeyd etdiniz ki, virus artıq sona doğru gedir. Virusun zəifləyib tamamilə yox olması nə zamana proqnozlaşdırılır?***

-Düşünürəm ki, bu ilin sonuna virus artıq tamamilə məhv olacaq. Doğrudur, yoluxma artır, amma bu virus həyatın qeyri-hüceyrəvi formasıdır. Virus yaşamaq üçün hüceyrə axtarır. Mutasiya isə virusun adaptasiya qabiliyyətidir. Formasını dəyişir ki, orqanizm onu tanımasın, immun sistemi onu məhv etməsin. Ona görə də virus mutasiyaya uğramaqda davam edir. Bu mutasiyalar isə getdikcə virusu zəiflədir. Hazırda həmin zəifləmə prosesini görürük. Bu qədər yoluxmaya rəğmən virusun öldürücülük qabiliyyəti xeyli aşağıdır. Bütün bunlar pandemiyanın sonunun gəldiyinin işarəsidir. Payız fəslində müəyyən artım ola bilər. Amma sonra ümumi azalma gedəcək və virusun yoxa çıxmasını müşahidə edəcəyik.

***-Bu gün dünyada diqqətdə olan xəstəliklərdən biri də meymunçiçəyidir. Bu xəstəliyin ölkəmizdə yayılma ehtimalı varmı?***

-Meymunçiçəyi kontakt yolu ilə yoluxan infeksiya olduğu üçün onun qlobal pandemiya yaratmaq imkanları yoxdur. Həmçinin, meymunçiçəyi hava-damcı yolu ilə yoluxmur. Bu baxımdan, təhlükə yoxdur. Dünyada meymunçiçəyinin lokallaşdırılması üçün tədbirlər görülür. Bizdə də bu tədbirlər görülməlidir. Azərbaycanda meymunçiçəyinə yoluxma qeydə alınmasa da, bu hələ xəstəliyin yox olması demək deyil. Amma ola bilər ki, bu cür hallar olub. Meymunçiçəyinin daha çox 40 yaşdan aşağı şəxslərdə əlamətləri olur. Ölkəmizdə rəsmi olaraq bu xəstəliyə yoluxma qeydə alınmasa da, lazımi hazırlıqlar görülməlidir. Artıq Azərbaycana meymunçiçəyi testləri gətirilib. Yəqin ki, müəyyən xəstəxanalar nəzarətə götürülüb. Yoluxma olarsa, həmin xəstəxanalar onun üçün ayrılacaq. Səhiyyə Nazirliyi tərəfindən bununla bağlı müəyyən işlər görülüb.

***-Dünyada dördüncü doza peyvəndin vurulacağı ilə bağlı fikirlərə rast gəlinir. Azərbaycanda 4-cü doza vaksinasiyanın aparılması ehtimalı varmı?***

-Peyvənd yoluxma zəncirini qırmaq üçün lazımdır. Ola bilsin ki, bu, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən buster doza şəklində tövsiyə olunsun. Amma peyvənd tədricən önəmini itirəcək. Çünki koronavirusun indiki ştamı daha çox yeni bir formadır. Gərək əvvəlki vaksinlər müəyyən modifikasiya olunsun ki, yeni ştama da təsir etsin. Hesab edirəm ki, buna ehtiyac olmayacaq. Azərbaycanda 4-cü doza vaksinin vurulmasına ehtiyac görmürəm.

***-Ölkəmizdə icbari tibbi sığorta tam olaraq tətbiq olunur. Buna baxmayaraq, sığortanın çatışmazlıqları ilə bağlı fikirlər də səsləndirilir. Siz necə düşünürsüz, icbari tibbi sığorta ilə bağlı hansı nöqsanlar var?***

-İcbari tibbi sığorta sosial müdafiənin mühüm bir formasıdır. Bu olmasa, səhiyyəni dünya standartları səviyyəsində müəyyən etmək olmaz. İcbari tibbi sığorta ölkəmizdə tətbiq olunsa da, müəyyən nöqsanlar var. Burada əsas nöqsan işin təşkili ilə bağlıdır. Bundan həm xəstələr, həm də həkimlər əziyyət çəkir. Həmçinin, yerlərdə maliyyələşmə məsələsi ilə bağlı problemlər qalır. Dəfələrlə bu barədə fikir bildirmişik. Təəssüflər olsun ki, icbari tibbi sığorta ilə bağlı ümumi bir məsləhətləşmə aparılmadı. Bu məsələ bir quruma həvalə olunub, o da hansısa formada işi aparır. Bunu dünya və ya qardaş Türkiyənin təcrübəsindən çıxış edərək elə yaratmaq olardı ki, sığorta daha çox effektli olsun. Vətəndaşlar, həkimlər və tibb işçiləri bundan daha çox fayda görərdi. Dünyada da belədir ki, təxirəsalınmaz yardım istisna olmaqla, icbari tibbi sığortaya müraciət edən şəxs növbə götürür, həkimə yazılır. Amma bizdə elə deyil. Kim nə zaman istəsə, həkimə gedir. İcbari tibbi sığortaya müraciət qaydaları mətbuatda geniş təbliğ olunmalıdır. Məsələn, yanımıza gələn xəstəyə deyirik ki, gedin, bunu sığorta ilə edin. Sual verir ki, hara müraciət etməliyəm? Bu o deməkdir ki, xəstələr məlumatsızdırlar. Onların məlumatlandırılması ilə bağlı işlər çox aşağı səviyyədədir. Həmçinin, burada maliyyə işinə nəzarət də şəffaf olmalıdır. Bu işlərdə ictimai nəzarət tam təmin olunmayıb.

***Anar Kəlbiyev***

# Səlim Müslümovun "korrupsiya işi"ndə müəmma

## Sabiq nazirin məhkəməsi başlayır; onun vəzifədə olduğu dövrdəki yüzmilyonlarla manatlıq yeyinti iddiaları təsdiqini tapacaqmı?

***Bu günlərdə sabiq əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümovun dövlətə nə qədər ziyan vurduğu məlum oldu. Belə ki, onun rüşvət alma yolu ilə 13 296 355 manat, mənimsəmə yolu ilə 7 237 188 manat, israf edilmiş yolla 7 087 671 manat ziyan vurduğu üzə çıxdı.O da bildirildi ki, Müslümov dəymiş ziyanın 6 974 428 manatını ödəyib. İstintaq həmin ödənilən məbləğin Maliyyə Nazirliyinin müvafiq hesabına köçürülməsi barədə qərar qəbul edib.***

Qeyd edək ki, Səlim Müslümovun cinayət işi baxılması üçün Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib. Onun məhkəməsinin vaxtı da bəllidir: Bakı Ağır Cinayətlər Məhkəməsində keçiriləcək məhkəmənin hazırlıq iclası avqustun 1-ə təyin edilib.



Cinayət işi hakim Faiq Qəniyevin icraatında araşdırılacaq.

Xatırladaq ki, bu ilin mayında sabiq əmək və əhalinin sosial müdafiəsi naziri qismən azadlığa buraxılıb. Bu barədə qərar Səbail Rayon Məhkəməsində elan olunub. Məhkəmənin qərarı ilə onun barəsində seçilmiş həbs qətimkan tədbiri dəyişdirilərək ev dustaqlığı qətimkan tədbiri ilə əvəz edilib.

Belə bir qərar sabiq nazirin səhhətində ciddi problemlərin olması ilə əlaqələndirilir.

İndi isə qayıdaq Müslümov barədə rüşvət alma, mənimsəmə və israf etmə yolu ilə ümumilikdə 28 milyon manata yaxın ittiham irəli sürülməsinə...

Bir çoxları həmin məbləği kifayət qədər az hesab edirlər. Məsələ burasındadır ki, bəzi iddialara görə, Müslümovun dövründə qurulmuş mexanizm əsasında büdcədən çırpışdırılan məbləğ 2-2,5 milyard manata yaxın olub. Bu iddialar indiyə qədər təkzib olunmayıb. "Səlim Müslümovun 2 milyarddan artıq məbləğdə büdcə vəsaitini mənimsəməsi çox ciddi ittihamdır. Hər kəs bilir ki, hər il ünvanlı sosial yardımlara 100 milyonlarla manat vəsait ayrılırdı. Həmin yardımların ünvana çatdırılmasını yoxlamaq kifayətdir ki, oğurluqların hansı səviyyədə olması üzə çıxsın. Sosial Müdafiə Fondunun büdcəsi bir neçə milyard manat təşkil edirdi. Əlilliyi olan şəxslərin reabilitasiyasına, internatlara, ahıllar evlərinə, işsizliyə görə müavinətlərə və sair məqsədlərə yönələn vəsaitləri də bura əlavə etməliyik. Yəni Müslümovun rəhbərlik etdiyi nazirliyin sərəncamında çox böyük həcmdə dövlət vəsaiti olub. 2 milyarddan artıq büdcə vəsaitlərinin ələ keçirilməsi ittihamına ən doğru qiyməti hüquq-mühafizə orqanları verə bilər" deyə "Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov bu günlərdə yerli mətbuata açıqlamasında bildirib.

O da qeyd olunur ki, təkcə Sosial Müdafiə Fondu dövlətdən hər il 1,5 milyard manat dotasiya alıb. Bu məbləğ Səlim Müslümovun nazir olduğu 5 il ərzində büdcədən ödənilib. Ümumilikdə 7 milyard 500 milyon manat büdcə pulunun xərclənməsi üzrə sənədlərdə Səlim Müslümovun möhürü, imzası var. Hesab edilir ki, həmin məbləğin nə qədəri təyinatı üzrə xərclənib, nə qədəri mənimsənilib sualına cavab tapılmalıdır.

Xatırladaq ki, 2018-ci ildə ölkənin aparıcı KİV-ləri Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin nəzdində fəaliyyət göstərən Dövlət Sosial Müdafiə Fondundan böyük həcmdə vəsaitin yoxa çıxdığını iddia ediblər. Həmin məlumatlarda söhbətin bir neçə milyard manata qədər vəsaitdən getdiyi deyilirdi.Bildirilirdi ki, uzun illər boyu qurulmuş mexanizm əsasında yoxa çıxarılan məbləğ 2-2,5 milyard manata yaxındır. İddialara görə, mexanizm bir neçə ay əvvəl Fondda aparılan yoxlamalar zamanı üzə çıxarılıb. Onun detallarının dəqiqləşdirilməsi, həmçinin qeyd olunan mexanizm üzrə hesablamalar aparılıb. O vaxt deyilirdi ki, sabiq əmək və əhalinin sosial müdafiəsi nazirinin vəzifədən kənarlaşdırılmasında həlledici rolu məhz bu məqam oynayıb.

Onu da qeyd edək ki, Müslümovun zamanında Dövlət Sosial Müdafiə Fondunun gəlirlərində ciddi artımların olmaması müntəzəm olaraq müzakirə edilib. Belə ki, gəlirlərin artım tempinin ölkədə açılan yeni iş yerlərinin artım tempindən on dəfələrlə geri qaldığı bildirilirdi. Fondun hesabatlarında sosial sığorta qeydiyyatına duranların sayında artım əksini tapsa da, gəlirlər arasında dövlət büdcəsindən ayrılan transferlərin həcmində azalma qeydə alınmamışdı. Məntiqlə, sığorta uçotunda duranların sayı artırsa, ona mütənasib olaraq da əməkhaqqından sosial sığorta ödənişləri artmalıdır. Lakin Müslümovun həm DSMF-yə rəhbərliyi, həm də nazir olduğu zamanlarda (2006-cı ildən bu qurum yenidən Səlim müəllimin nəzarətinə keçib - Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyinə verilib) dönəmlərdə Fondun gəlirlərində qeyd olunan ödənişlərin müvafiq artımı qeydə alınmayıb. Eyni zamanda pensiya təyinatı və ödənişi sistemi hələ də ən çox korrupsiyalaşmış sahələrdən biri kimi tanınmaqda idi.

Bütün bunları nəzərə aldıqda cəmiyyətin və medianın Müslümovla bağlı illər uzunu davam edən iddialara aydınlıq gətirilməsini gözləməsindən təbii heç nə yoxdur. İstisna deyil ki, eks-nazirin məhkəməsində onun vəzifədə olduğu dövrdəki mənimsəmələrin həqiqi miqyası da ortaya çıxacaq. Ya məlum olacaq ki, yuxarıda bəhs edilən iddialar elə quru iddiadan ibarətmiş, heç bir əsası yox imiş, ya da aydınlaşacaq ki, vaxtilə həm Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində, həm də DSMF-də daha böyük korrupsiya əməliyyatlarına yol verilib. Bu mənada Müslümovun məhkəməsinin kifayət qədər maraqlı keçəcəyini və çoxillik suallara böyük ölçüdə cavab veriləcəyini proqnozlaşdırmaq mümkündür...

***Sənan Mirzə***

# “Siyasi partiyalar haqqında” yeni qanunda nələr olacaq...

***Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri ”Siyasi partiyalar haqqında” yeni qanun layihəsinin hazırlanması ilə bağlı parlament sədrinə müraciət ediblər. Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına cavab verən yeni qanunun hazırlanmasının zəruriliyi vurğulanıb.***

Milli Məclisin sədri Sahibə Qafarova artıq yeni qanun layihəsinin hazırlanması haqqında müvafiq tapşırıqlar verib və sənədin hazırlanması üzrə işə başlanılıb.

Həmçinin, Milli Məclisin Mətbuat Xidmətinin yaydığı məlumatda “bu qanunun ictimai əhəmiyyətini nəzərə alaraq, Azərbaycanda dövlət qeydiyyatına alınmış siyasi partiyaların yeni qanun layihəsi ilə bağlı təkliflərini Azərbaycan Respublikası Milli Məclisinə təqdim etmələri xahiş olunur”, - deyə bildirilib.

”Siyasi partiyalar haqqında” yeni qanunda hansı məqamlar yer alacaq?

Bu barədə Modern.az-a danışan Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafanın fikrincə, siyasi partiyaların fəaliyyətinin genişləndirilməsinə ehtiyac var: “Partiyaların parlament fəaliyyəti, müxalifətdə olan partiyaların statusu, onların fəaliyyətinin müəyyən istiqamətləri qanunda öz əksini tapmalıdır ki, gələcəkdə hansısa müxalif fəaliyyətinə görə kimisə ittiham etmək mümkün olmasın. Həmçinin, partiyaların dəqiq təyinatı verilməlidir. Bunun əsasında partiyaların tərifi daha dolğun şəkildə əhatə olunmalıdır. Bu məsələdə partiyaların rolunu qaldırmaq vacibdir”.

Proporsional seçki sisteminin tətbiqi haqqında təkliflərə də münasibət bildirən Fazil Mustafa bunun mümkün olduğunu düşünür: “Qanunda düzəlişlər həyata keçirildikdən sonra proporsional seçki sisteminin tətbiqi haqqında düşünmək olar. Bu artıq gələcək vəziyyətdən asılı olacaq”.

Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə isə bildirib ki, qanunu bugünkü vəziyyətə uyğunlaşdırmaq lazımdır: “Siyasi partiyaların daha geniş imkanlarını müəyyənləşdirməliyik. Çünki ölkədə çoxpartiyalı sistem güclənməli, partiyaların imkanları artırılmalıdır. Qanunda müvafiq dəyişikliklər etməklə bugünkü vəziyyətə uyğunlaşma aparılmalı idi. İndi tapşırıq verilib, iş aparılır. Ümidvaram ki, yaxın müddətdə qanun parlamentə təqdim ediləcək və müzakirələrə çıxarılacaq”.

# TƏBİB-dən körpə ölümü ilə bağlı açıqlama

***Doğum evində körpə ölümü ilə bağlı məsələ TƏBİB-in müvafiq komissiyasının nəzarətindədir.***

Qurumdan ”Unikal”a bildirilib ki, məsələ TƏBİB-in tabeliyində ”Hamiləlik, doğuş, zahılıq dövrlərində ana və uşaq ölümü, ağırlaşmış doğuş hallarının təhlili üzrə Komissiyası”nın nəzarətindədir.

“Komissiyanın üzvləri tərəfindən “Xəstəlik tarixləri”nin təhlili aparılır. Eyni zamanda, uşağın meyiti yarılması üçün Patoloji Anatomiya Bürosuna təhvil verilib. Aidiyyəti rayon prokurorluğu tərəfindən də müvafiq araşdırmalar aparılır”, - qeyd olunub.

# Polad Bülbüloğlu Sudan səfiri ilə görüşüb



***Cari ilin 27 iyul tarixində səfir Polad Bülbüloğlu Sudan Respublikasının Rusiya Federasiyasına yeni təyin edilmiş səfiri Məhəmməd Elqazali Eltijani Sirracı onun xahişi ilə qəbul edib.***

Azərbaycanın Rusiyadakı səfirliyindən Modern.az-a verilən xəbərə görə, görüş əsnasında Polad Bülbüloğlu sudanlı həmkarını təyinatı münasibətilə təbrik edərək ona vəzifəsində müvəffəqiyyətlər arzulayıb.

Bundan əlavə Moskvada akkreditə edilmiş diplomatik korpusun duayeni qismində fəaliyyəti, təşkil edilən çoxsaylı görüş və mədəni tədbirlər barədə məlumatlandırıb.

Azərbaycanın Sudanla münasibətlərinə toxunaraq ikitərəfli əlaqələrin inkişaf etdirilməsi üçün imkanların olduğunu bildirib, bu xüsusda turizm, elm, təhsil və mədəniyyət sahələrində, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulayıb.

Azərbaycan səfiri həmkarını Ermənistan-Azərbaycan münaqişəsi, onun tarixi, aparılmış danışıqlar prosesi, BMT Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsi və digər beynəlxalq təşkilatlar çərçivəsində münaqişə ilə bağlı qəbul edilmiş çoxsaylı sənədlərin mahiyyəti haqqında məlumatlandıraraq, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun Vətən müharibəsində qazandığı parlaq qələbə haqda danışıb, Azərbaycanın öz suveren torpaqları naminə vuruşduğunu, beynəlxalq hüququn, haqq və ədalətin ölkəmizin tərəfində olduğunu qeyd edib. Eyni zamanda, münaqişəyə son qoymuş məlum üçtərəfli Bəyanatın müddəaları və postmünaqişə dövrü, azad olunmuş ərazilərimizdə sürətlə aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə də qarşı tərəfə ətraflı məlumat verib.

Polad Bülbüloğlu Sudan Respublikası Milli Assambleyasının xarici əlaqələr komitəsi tərəfindən 1 sentyabr 2014-cü il tarixində 1992-ci ilin fevralında Xocalı şəhərində mülki Azərbaycan əhalisinə qarşı Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş qətliamı soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınmasına görə təşəkkür edib, bu tarixi addımın ölkəmiz üçün əhəmiyyətini önə çəkib. Ümumiyyətlə, Sudan tərəfindən Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq təşkilatlar çərçivəsində dəstəklənməsini yüksək qiymətləndirib.

Görüşdə regionda baş verən proseslər və maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb. Məhəmməd Sirrac öz növbəsində ölkəsi üçün Azərbaycanın yaxın dost dövlət olduğunu bildirib, Sudanın da separatizm meylləri ilə üzləşdiyinə diqqət çəkərək, Azərbaycanı yaxşı anladıqlarını söyləmiş və bundan sonra da istənilən beynəlxalq platformada eyni mövqedən çıxış edəcəklərini vurğulayıb.

Sonda Sudandan olan qonağa Heydər Əliyev Fondu tərəfindən nəfis şəkildə çap edilmiş "Zəfər salnaməsi" və "Qarabağ işğaldan əvvəl və sonra" kitabları hədiyyə edilib.

Cənab Sirrac maraqlı və məhsuldar görüşə görə Səfir Polad Bülbüloğluna təşəkkürünü bildirib.

# Sabiq müdir hakim qarşısına çıxarılır

***Biləsuvar şəhər Kommunal Müəssisələri Kombinatının sabiq müdiri Xalidə Ağayevanın sübutları saxtalaşdırması faktı ilə bağlı başlanmış cinayət işinin ibtidai istintaqı tamamlanıb.***

Biləsuvar rayon prokurorluğundan verilən məlumata görə, aparılmış istintaqla Xalidə Ağayevanın Biləsuvar rayon məhkəməsində baxılan mülki iş üzrə öz xeyrinə qətnamə çıxarılmasının təmin edilməsi məqsədi ilə Abşeron rayon Mərkəzi Xəstəxanasının poliklinika şöbəsi tərəfindən verilmiş əmək qabiliyyətinin olmaması barədə xəstəlik vərəqəsinə uydurma məlumatlar daxil edib Biləsuvar rayon məhkəməsinə təqdim etməklə mülki iş üzrə sübutları saxtalaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Toplanmış sübutlar əsasında Xalidə Ağayevaya Cinayət Məcəlləsinin 294.1-ci (mülki iş üzrə işdə iştirak edən şəxs və ya onun nümayəndəsi tərəfindən sübutların saxtalaşdırılması) maddəsi ilə ittiham elan edilərək cinayət işi baxılması üçün Biləsuvar rayon məhkəməsinə göndərilib.

# Korrupsioner məmurlara Vilyam Hacıyev dərsi...

## İmişlinin sabiq icra başçısı haqqında hökm özlərini "toxunulmaz" sayan vəzifə sahiblərinə hansı mesajı yollayır?

***Yola salmaq üzrə olduğumuz həftə həbsdəki daha bir korrupsioner məmura hökm oxundu: Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyatla saxlanılan, Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) 313-cü (vəzifə saxtakarlığı) və 228-ci (qanunsuz silah saxlama) maddələri ilə ittiham olunan İmişlinin sabiq icra başçısı Vilyam Hacıyevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşdı.***

Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Paşayevin sədrliyi ilə keçirilən prosesdə Vilyam Hacıyev son sözlə çıxış etdi. Öncə iddia elədi ki, istintaq zamanı, məhkəmə dövründə ona qarşı verilən ittihamlar təsdiqini tapmayıb. Bu iddia həddsiz gülməlidir - çünki Hacıyevin xirtdəyədək korrupsiyaya bulaşdığı hələ vəzifədə olarkən məlum idi, həbs olunarkən iş yerində və evində tapılan sübutlar, böyük məbləğdə pullar, Anadolu türkləri demiş, "məlumun elanı" oldu.



V.Hacıyev ardınca "dövlətə və dövlətçiliyə xidmət etdiyini" bildirdi. Bu da şübhə altındadır: çünki icra başçısı olarkən ondan vətəndaş şikayətlərinin, eləcə də sahibkar narazılıqlarının nə həddi var idi, nə hesabı. Üstəlik, imişlilərin həbsini, işdən azad olunmasını toy-bayramla qarşılaması Vilyam müəllimin dövlətə və dövlətçiliyə necə xidmətinin bariz nümunəsi idi. Kimsə inciməsin, rüşvət və korrupsiyaya bulaşaraq, nə dövlətə, nə də dövlətçiliyə xidmət etmək mümkündür. Belə qanunsuz əməllərlə yalnız özünə, öz ailə üzvlərinə, qohum-əqrəbana xidmət eləmək olar.

Elə məhkəmə də görünür, bu sadalananları nəzərə aldı və Vilyam Hacıyev haqqında 12 il müddətinə azadlıqdan məhrumetmə hökmü verdi.

Keçmiş rayon rəhbəri azadlığa buraxılması üçün indiyədək bir neçə dəfə apellyasiya şikayəti vermiş, lakin hər dəfə onun cəhdi nəticəsiz qalmışdı. O da maraqlıdır ki, həbsdə olan digər icra başçılarının heç biri bu inadkarlığı göstərməmişdi - barələrindəki həbs qətimkan tədbirinin dəyişdirilməsi üçün ardıcıl vəsatətlər qaldırmamışdı. Ancaq V.Hacıyev nəyə görəsə əmin idi ki, həbsdə çox qalmayacaq.

Gəlin xatırlayaq.

"Hər şey yaxşı olacaq. Bu günlər keçəcək. Haqq yerini tapacaqg" - bu sözləri İmişli Rayon İcra Hakimiyyətinin sabiq başçısı hələ haqqında həbs qətimkan tədbiri seçildikdən sonra məhkəmə qarşısında yaxınlarına xitabla demişdi.

Həmin vaxt bu KİV-də və ictimai rəydə onun kimlərə və yaxud nələrəsə arxayınlığı kimi yozulmuşdu. Belə güman olunurdu ki, V.Hacıyev həbsdə çox qalmayacağına inanır və bu zaman naməlum himayədarının, yaxud himayədarlarının hər hansı formada yardımına ümid edir.

Lakin sabiq icra başçısının həmin ümidi ilk dəfə mayın 15-də apellyasiya şikayətinə baxıldıqdan sonra boşa çıxmışdı. Onun barəsində həbs- qətimkan tədbirinin seçilməsi ilə bağlı məhkəmə qərarından verilən şikayət rədd edilmişdi. Ardınca oktyabr və noyabrda qaldırdığı iki vəsatət də rədd olundu.

Və sonda o, 12 il müddətinə azadlıqdan məhrum olundu.

Bununla da bir daha təsdiqləndi ki, rüşvət və korrupsiyaya bulaşan yüksək vəzifəlilərin hansısa vasitələrlə qısa zamanda "sudan quru çıxacaqlarına" ümid etmələri, el dili ilə desək, "tezbazar" azadlıqlarına qovuşacaqlarına inam bəsləmələri mənasızdır.

Ölkə başçısı da bir sıra çıxışlarında açıq şəkildə vurğulayıb ki, hansısa məmur kimlərəsə arxayın olub, arxalanıb özünü toxunulmaz hesab edirsə yanılır. Dövlət rəhbəri, eyni zamanda, korrupsiyaya bulaşmış heç bir məmurun toxunulmaz olmadığını da bəyan etmişdi.

V.Hacıyevin timsalında bu deyilənlər növbəti dəfə təsdiqləndi. Bir daha məlum oldu ki, heç bir korrupsioner, rüşvətxor məmur qanunsuz əməllərini müxtəlif yollarla, vasitələrlə, yaxud vasitəçilərlə pərdələyəcəyinə bel bağlayır, cəzasız qalacağına, cəzadan qurtulacağına inanırsa kökündən yanılır.

Düzdür, bəzi məmurların hansısa yollarlasa az müddət həbs yatıb cəzalarını ev dustaqlığı, yaxud şərti cəza ilə əvəzləməyə nail olduqlarına dair nümunələr var. Ancaq belə hallar cəmiyyətin haqlı təpkisinə səbəb olur. Ona görə də güman etmək mümkündür ki, biz qarşıda rüşvətxor, korrupsioner məmurların ağır cəzalar alması tendensiyasının güclənəcəyinə şahidlik eləyəcəyik.

Üstəlik, yəqin onu da görəcəyik ki, kimlərinsə himayəsinə, dəstəyinə güvənərək özlərini "toxunulmaz" sayan vəzifə sahiblərinin bu arxayınçılığı tamamilə yersizdir. Ən azından, Vilyam Hacıyev barəsindəki məhkəmə hökmünə əsasən belə bir ehtimalla çıxış etmək olar. Bu elə hökmdür ki, onlara kimsənin "qaşın üstə qara var" deməyəcəyini düşünən, həmin düşüncə ilə də istənilən qanunsuzluğa rahatca qol qoyan məmurlar ibrət alsalar, dərs çıxarsalar pis olmazdı.

Əks halda, özlərindən küssünlər...

**Sənan Mirzə**

# Əhməd Vəliyevin bankı kiçildi

## Hüquqi şəxslər sabiq deputat və rektorun bankındakı vəsaitlərini geri çəkiblər

***Azərbaycanda fəaliyyət göstərən kommersiya bankları 2022-ci ilin birinci yarısına dair maliyyə göstəricilərini açıqlayıb. Cari dövrdə ölkə iqtisadiyyatında yüksək inkişafa, əhalinin və biznes sektorunun yüksək gəlir əldə etməsinə baxmayaraq bəzi banklar durğunluq vəziyyətindən çıxa bilməyiblər.***

Yerli medianın yazdığına görə, həmin banklardan biri "Muğanbank" ASC-dir.

Bu ASC-nin açıqladığı məlumatlardan görünür ki, ilk 6 ayda bank kiçilib. 2021-ci ilin sonunda aktivlərini 708,5 milyon manata qədər artıran bank, bu ilin ilk 6 ayında 698 milyon manat aktivə sahib olub.

Aktivlərin kiçilməsi banklar və digər maliyyə institutlarındakı depozitlərin azalması ilə bağlıdır. Ötən il başqa banklarda 142 milyon manat Bununla əlaqədar olaraq bankda depozit faizləri artırılıb. Faizlərin artırılması hesabına bankda fiziki şəxslərə aid olan depozitlər 24 milyon manat yüksələrək 305 milyon manata çatıb.

Mövcud vəziyyətdə "Muğanbank"ın gəlirləri də azalıb. Bank 6 ayda 506 min manat xalis mənfəət əldə edib ki, bu da ötən ilin eyni dövrünə nisbətən 10 faiz azdır.

Qeyd edək ki, "Muğanbank" bank dairələrində daha çox "Odlar Yurdu" Universitetinin rektoru, sabiq deputat Əhməd Vəliyevin bankı kimi tanınır. Mətbuatda sözügedən bankın adı hətta "MTN işində" belə hallandırılıb və riskli banklardan biri kimi təqdim olunub.

Məlumat üçün onu da bildirək ki, bankın səhmdarlarının nizamnamə kapitalındakı pay bölgüsü aşağıdakı kimidir: Mehdiyev Elmir Maqbet oğlu - 63,50 faiz (Ə.Vəliyevin kürəkəni, həmçinin bankın Müşahidə xalis zərərlə qapatması, 2020-ci ilə isə vur-tut 707 min manat xalis mənfəət ilə bağlaması belə düşünənlərin arqumentini gücləndirirdi.

Lakin bu ilin əvvəlində məlum oldu ki, "Muğanbank" 2021-ci ili 1 milyon 552 min manat xalis mənfəət ilə başa vurub. Beləliklə, "Muğanbank"ın xalis mənfəəti 2020-ci illə müqayisədə 2021-ci ildə 2,1 dəfə və ya 845 min manat artıb. Xalis mənfəətin artmasının səbəbi kimi gəlirlərin artması gözlənilir.

Bundan başqa, ötən il S&P Global Ratings beynəlxalq reytinq agentliyinin "Muğanbank" üzrə uzun və qısamüddətli emitent kredit reytinqlərini '"CCC + / C"dən "B- / B" səviyyəsinə yüksəltməsi, banka dair proqnozunu isə sabit olaraq qiymətləndirməsi sabiq deputat və rektorun bankı üçün çətin günlərin arxada qaldığını düşünmək üçün əsas yaradırdı. Bununla belə, bey-




depoziti olan "Muğanbank" hazırda 77,4 milyon manat depozitə sahibdir.

"Muğanbank"ın digər banklardan vəsaitlərini çəkməsinin səbəbi maliyyə çətinliyi ilə üzləşməsidir. Belə ki, hüquqi şəxslər bankda olan vəsaitlərin çox hissəsini götürdüyündən "Muğanbank" çətin vəziyyətə düşüb. Hüquqi şəxslərin 6 ay əvvəl bankda 116 milyon manat depoziti olub. Bu il ərzində həmin depozitlər 54,8 milyon manata qədər azalıb. Depozitlərin azalması bankı çətin vəziyyətə salıb və buna görə də "Muğanbank" digər banklarda olan vəsaitinin bir hissəsini geri çəkib.

O da bildirilir ki, "Muğanbank" hüquqi şəxslərin hansı səbəbdən vəsaitlərinin çox hissəsini götürdüyünü açıqlamır.

Maliyyə sıxıntısı yaşayan bank bu vəziyyətdə fiziki şəxslərdən daha çox depozit cəlb etməyə çalışır. Şurasının sədri), Vəliyeva Vəfa Əhməd qızı - 12,05 faiz (Ə.Vəliyevin qızı), Mehdiyev Maqbet Rəhim oğlu - 13,10 faiz (Ə.Vəliyevin qudası, Tibb Universitetinin dosenti) Mehdiyeva Fəridə Cahandar qızı - 11.35 faiz (Ə.Vəliyevin qudası)g

Ə.Vəliyevin özü isə bankın ona bağlılığını bir neçə dəfə inkar edib. Baxmayaraq ki, yuxarıdakı siyahıdan "Muğanbank"da sabiq deputat və rektorun ailə üzvlərinin tam paya sahib olduqları aydın görünür.

Xatırladaq ki, son illər mətbuatda "Muğanbank"ın da çətin maliyyə vəziyyətinə düşdüyü, banka Mərkəzi Bank tərəfindən xəbərdarlıq edildiyi, bağlanma ehtimalının yarandığı və s. barədə məlumatlar yer alıb. Bu da təsadüfi sayılmır, çünki bankın maliyyə göstəriciləri son illərdə onun vəziyyətinin qənaətbəxş olmadığından xəbər verirdi. Elə Ə.Vəliyevin bankının 2019-cu ilin ilk 9 ayını 8 milyon 254 min manat nəlxalq reytinq agentliyinin məlumatında "Muğanbank" üçün müəyyən risklərin qaldığı da vurğulanmışdı. Elə növbəti 12 ay ərzində bankın franşizasının rentabelli böyümə ilə nəticələnmədiyi və aktivlərin keyfiyyətindəki yaxşılaşma tendensiyasının əksinə olacağı təqdirdə mənfi reytinqin yarana biləcəyi, depozitlərin bankdan axını baş verdikdə, likvidliyin zəifləyəcəyi barədə proqnozlar da bunu söyləməyə imkan verirdi.

Bu ilin ilk 6 ayında sabiq deputat və rektorun bankının kiçilməsi, hüquqi şəxslərin bu bankdakı, ardınca "Muğanbank"ın özünün də digər banklardakı vəsaitlərini çəkməsi və sonuncunun səbəbi olaraq bunun maliyyə çətinliyi ilə izah edilməsi belə düşünməyə əsas yaradır ki, Əhməd Vəliyevin adıçəkilən ASC-si üçün işlər hələ də tam qaydasında deyil.

***Toğrul Əliyev***




# Pənahəli xanın varisi Şuşaya gedəcək

***Şuşada keçiriləcək Diaspor Gənclərinin III Yay Düşərgəsində Qarabağ xanlığının qurucusu Pənahəli xanın nəslindən olan gənc də iştirak edəcək.***

Bu barədə "Unikal"a Diasporla İş üzrə Dövlət Komitəsindən məlumat verilib.

İspaniyada doğulub böyüyən Məhəmmədəli Əkbərov iştirak etmək üçün vətənə gəlib.

O, "Diaspor TV-nin "Vətən uzaqda deyil" proqramının qonağı olub, ulu babaları və mənsub olduğu nəslin şəcərəsi, eyni zamanda ailələrində həmin şəcərəni əks etdirən sənədlərin olması barədə danışıb. Soydaşımız Şuşada keçirilən Diaspor Gənclərinin Yay Düşərgəsində iştirak etməyin sevincini və həyəcanını yaşadığını da dilə gətirib.

"Diaspor Gənclərinin III Yay Düşərgəsi" Diasporla İş üzrə Dövlət Komitəsi və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə 2022-ci ilin 2-8 avqust tarixlərində "Şuşa İli" çərçivəsində Azərbaycan mədəniyyətinin incisi olan Şuşa şəhərində təşkil ediləcək. Düşərgənin tərəfdaşları Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Dövlət Turizm Agentliyi və Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsidir.

# Ərzaqlıq buğdanın dövlət tədarük qiyməti 580 manat oldu



***Azərbaycan Respublikası Prezidentinin ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi məqsədilə qəbul etdiyi "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli Fərmanının icrası istiqamətində işlər davam etdirilir.***

Nazirlər Kabinetindən "Unikal"a verilən məlumata görə, Fərmanın 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsi, yerli ərzaqlıq buğda istehsalçılarının fəaliyyətinin stimullaşdırılması və onlara dövlət dəstəyinin göstərilməsi ilə əlaqədar Dövlət Ehtiyatları Agentliyinin aidiyyəti dövlət qurumları ilə razılaşdırılmış təklifinə əsasən Nazirlər Kabineti tərəfindən müvafiq Sərəncam qəbul edilib.

Həmin Sərəncamla ərzaqlıq buğdanın istehsal xərcləri (maya dəyəri) və istehsalçının mümkün qazancı nəzərə alınmaqla, Nazirlər Kabinetinin 2009-cu il 7 iyul tarixli 105 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət Taxıl Fondunun saxlanması və istifadəsi Qaydaları"nın 1 nömrəli əlavəsində göstərilən keyfiyyət göstəricilərinə uyğun yerli ərzaqlıq buğdanın bir tonunun dövlət tədarük qiyməti 2022-ci il üçün 580,0 (beş yüz səksən) manat müəyyən edilib.

# 13 uşaq qərəzli şəkildə təhsildən yayındırılıb - RƏSMİ

***İl ərzində qərəzli şəkildə təhsildən uzaqlaşdırılan 13 uşaq aşkarlanıb.***

"Unikal" xəbər verir ki, bunu Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Taliyə İbrahimova deyib. Onun sözlərinə görə, Komitə həmin uşaqların taleyi ilə maraqlanıb:

"Belə hallar aşkarlananda dərhal hərəkətə keçilir və müvafiq tədbirlər görülür. 2018-ci ildən repatriasiya olunan uşaqlarla bağlı da 3 aydan bir monitorinqlər aparılır. Elə uşaqlar da var ki, cinsi zorakılığa məruz qalıb. Sığınacaqlar belə uşaqları qəbul etmək istəmir".

# Nazir müavini: "Milli Observatoriya məqsədyönlü işlər görür"

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Əmək Bazarı və Sosial Müdafiə Məsələləri üzrə Milli Observatoriyanın yaradılmasının üç illiyi münasibəti ilə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində tədbir keçirilib.***

Tədbirdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, ali təhsil müəssisələrinin, Azərbaycan Türk İş Adamları Birliyinin (ATİB) rəhbər şəxsləri, tədqiqat mərkəzlərinin nümayəndələr iştirak edib. Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli Prezident İlham Əliyevin müvafiq Fərmanına əsasən, Nazirliyin tabeliyində publik hüquqi şəxs olaraq yaradılan Milli Observatoriyanın sosial islahatlar prosesində önəmini vurğulayıb.

Nazir müavini əmək bazarı və sosial müdafiə sahələrində mövcud vəziyyətin qiymətləndirilməsi, inkişaf meyillərinin öyrənilməsi üzrə monitorinqlərin aparılması, səmərəli idarəetmə qərarlarının qəbul edilməsi məqsədilə təhlil və proqnozlar hazırlanması istiqamətlərində qurum tərəfindən məqsədyönlü işlərin görüldüyünü qeyd edib.

V.Nəsirli Milli Observatoriyanın nazirliyin təlim bazası kimi də peşəkar mütəxəssislərin hazırlanması və təlim proqramlarının tərtibində əhəmiyyətli rolunu diqqətə çatdırıb.

Milli Observatoriyanın İdarə Heyəti sədrinin müavini Elnur Səfərli əmək, məşğulluq, sosial müdafiə sahələri üzrə təkmil monitorinq, təhlil, proqnozlaşdırma sisteminin yaradılması istiqamətində qurumun fəaliyyətindən bəhs edib. Qurumda aparılan tədqiqatlara dair məlumatlar verilib. İşçilərin fəaliyyətinin qiymətləndirilməsi, eləcə də göstərilən xidmətlərin keyfiyyətinin ölçülməsi və optimallaşdırılması üzrə xidmətlərin də hazırlanmaqda olduğu qeyd edilib.

Observatoriyada keçirilən təlimlərdən bəhs olunub. Sorğu müayinə mərkəzi olaraq qurumda yeni xidmətlərin bazar araşdırmasının, vətəndaş və işçi məmnuniyyəti sorğularının həyata keçirildiyi də bildirilib.

Vurğulanıb ki, Milli Observatoriya təhlil və tədqiqat mərkəzi olaraq regionda aparıcı beyin mərkəzlərindən birinə çevrilməyi hədəfləyir.

ATİB sədri Cemal Yaygın və gözdən əlilliyi olan professor Elnur Eyvazov fəxri qonaq qismində çıxış ediblər.

Tədbir DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzində musiqi istiqaməti üzrə təlim kurslarındakı əlilliyi olan şəxslərin ifalarından ibarət konsert proqramı ilə yekunlaşıb.

# Nömrəsiz maşın sürənlər cərimələndi

***İsmayıllı Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən dövlət nömrə nişanı olmadan nəqliyyat vasitəsi idarə edən sürücülərin müəyyən olunaraq inzibati məsuliyyətə cəlb edilmələri məqsədilə profilaktik tədbirlər keçirilib.***

DİN-in Mətbuat xidmətinin Şəki regional qrupundan "Unikal"a verilən məlumata görə, rayon ərazisində keçirilən tədbirlər zamanı hərəkətdə olan və üzərində dövlət nömrə nişanı olmayan nəqliyyat vasitələri saxlanılıb.Onların sürücüləri ilə maarifləndirici söhbətlər aparılıb və avtomobillərin bu şəkildə idarə edilməsinə qanunvericiliyin normalarında icazə verilmədiyi izah olunub.

Həmin şəxslərin hər biri barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələri ilə protokol tərtib edilib.

# Milli Yaylaq Festivalına gedənlərə müraciət

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Dövlət Avtomobil Nəqliyyat Xidməti (DANX) Milli Yaylaq Festivalına gedənləri xüsusi nəqliyyat vasitəsi ilə təmin edəcək.***

Bu barədə "Unikal"a Festivalın təşkilatçıları məlumat verib. Məlumatda deyilir ki, iyulun 29-31-də, saat 08:00-dan Gəncə şəhərindəki Mərkəzi Univermağın və Göygöl rayonundakı avtovağzalının qarşısından festivalın keçiriləcəyi "Xan Yaylağı" Etno-qəsəbəsinə doğru və geriya ictimai nəqliyyat hərəkət edəcək. Gediş haqqı 1 nəfər üçün 1,5 manat olacaq.

Təşkilatçılar Milli Yaylaq Festivalına fərdi qaydada öz avtomobilləri ilə gələnlərə də xəbərdarlıq edib. Belə ki, festival ərazisində avtomobil sıxlığının qarşısını almaq məqsədilə "Xan Yaylağı"na çatmamış böyük önləyici dayanacaq təşkil olunacaq. Buradan təqribən 700 metr məsafəni piyada getməklə əraziyə çatmaq mümkündür. Eyni zamanda həmin dayanacaqdan da kiçik avtobuslarla "Xan Yaylağı"na reyslər təşkil olunacaq. Gediş haqqı 1 nəfər üçün 0,5 manat olacaq.

# Prezidentə müraciət edən Xalq artistinin problemi həll edildi

***Bir neçə gün əvvəl rejissor, yazıçı və şair, Azərbaycanın xalq artisti Əflatun Nemətzadə Bakıda ona qarşı mənzillə bağlı dələduzluq edildiyindən şikayət edib.***



Ankarada Qazi universitetinin professoru olan Əflatun Nemətzadənin şikayətini "Haqqın.az" saytı işıqlandırıb. Məlumata görə, Yazıçılar Birliyinin üzvü Ə.Nemətzadə 2017-ci ildə Ankarada olarkən Azərbaycan səfirliyindən ona zəng edilib və "Fədək" mənzil-tikinti kooperativinin nümayəndəsi görüşmək istədiyini bildirib. Nümayəndənin professorla görüşmək istəməsinə səbəb isə onun Bakıda sahib olduğu mənzil olub.

Şikayətçinin sözlərinə görə, Nemətzadə həmin şəxslə görüşdükdə şirkət nümayəndəsi professora müqavilə təqdim edib. Sözügedən müqaviləyə əsasən, professor Bakının Nəsimi rayonunda sahib olduğu mənzilinin yerləşdiyi evin sökülməsinə icazə verir və bunun müqabilində həmin ərazidə inşa olunacaq çoxmərtəbəli binada geniş əraziyə sahib mənzil əldə edəcək.

Sayt yazır ki, müqaviləyə əsasən, Nemətzadəyə yeni inşa olunan binada 20 kvadrat metr əlavə tikili ilə 118 kvadrat metr sahəsi olan yeni mənzil verilməli idi. Lakin daha sonradan şirkətin rəhbəri dəyişdiyindən əvvəlki layihə də ləğv olunub və yenisi hazırlanıb. Yeni layihəyə əsasən isə sakinlərə əlavə ödəniş qarşılığında 140-150 kvadrat metr sahəli mənzillər təklif olunub. Nəticədə isə Nemətzadə mənzilsiz qalıb.

Bunun ardınca, Ə. Nemətzadə Prezident İlham Əliyevlə şəxsən tanış olduğunu bildirərək ondan kömək istəyib. Professorun üzləşdiyi problem işıqlandırıldıqdan sonra onun məsələsinə tez bir zamanda reaksiya verilib.

Prezidentin göstərişi əsasında, bu məsələ dövlət orqanlarının nəzarəti altına götürülüb və öz həllini tapıb. Belə ki, Əflatun Nemətzadə ilə ona böyük əraziyə sahib mənzilin verilməsi ilə bağlı yeni müqavilə imzalanıb.

Bununla yanaşı, ev inşa olunana qədər Ə.Nemətzadə üçün mənzil icarəyə götürüləcək. Həmçinin professorun əvvəlcədən "Fədək" şirkətinə ödədiyi 10 min manat vəsaiti də geri qaytarılıb.

# Ümumdünya İnsan Alverinə qarşı Mübarizə Gününə həsr olunmuş tədbir keçirilib

***30 iyul - Ümumdünya İnsan Alverinə qarşı Mübarizə Günü ilə əlaqədar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyi tərəfindən Daxili İşlər Nazirliyi, Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi, ABŞ Beynəlxalq İnkişaf Agentliyi (USAID) ilə birlikdə dəyirmi masa təşkil olunub.***



"İnsan alverinə qarşı mübarizə: fəaliyyət və perspektivlər" mövzusunda keçirilən tədbirdə aidiyyəti dövlət qurumları, beynəlxalq təşkilatlar və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak edib.

İnsan alverinə qarşı mübarizədə atılan addımlar, dövlət qurumları və qeyri-hökumət təşkilatlarının bu sahədəki fəaliyyəti, insan alverindən zərər çəkmiş şəxslərin reabilitasiyası üzrə layihələr müzakirə olunub.

Sosial Xidmətlər Agentliyinin İdarə heyətinin sədri Vüqar Behbudov Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"nı qeyd edib. Milli Fəaliyyət Planında insan alveri qurbanlarının sosial müdafiəsi və reabilitasiyası tədbirlərinin də mühüm yer tutduğunu vurğulayıb. İnsan alverindən zərər çəkmiş şəxslərə Agentlik tərəfindən göstərilən sosial xidmətlər, Agentliyin tabeliyindəki mərkəzin - İnsan Alveri Qurbanlarına Yardım Mərkəzinin fəaliyyəti haqqında məlumat verilib.

Tədbirdə Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə Baş İdarəsinin rəisi, polis general-mayoru Həzi Aslanov və Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Vladimir Gjorgjiev insan alveri ilə mübarizədə birgə fəaliyyət müstəvisində görülən tədbirlərin əhəmiyyətini qeyd ediblər. Digər çıxış edənlər mövzu ilə bağlı fikirlərini səsləndiriblər.

Tədbir insan alverinə qarşı mübarizə sahəsində görülən işlər və perspektivlərə dair müzakirələrlə davam edib. BMT Baş Assambleyasının 2013-cü il dekabrın 18-də qəbul etdiyi qətnaməyə əsasən hər il 30 iyul tarixi Ümumdünya İnsan Alverinə qarşı Mübarizə Günü kimi qeyd edilir. Məqsəd insan alverinin mahiyyəti barədə məlumatlılığın artırılması, beynəlxalq ictimaiyyətin diqqətinin insan alveri qurbanlarının üzləşdiyi problemlərə yönəldilməsidir.

**6.3.2. fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Şuşada keçirilən Media Formundan böyük gözləntilər var

## Vüqar Rəhimzadə: "İctimai fikrə təsir imkanları böyük olan, mətbuatı düşündürən məsələlərin, qarşıda dayanan vəzifələrin Şuşada müzakirə olunması isə böyük tarixi hadisədir".

***Ötən həftə Azərbaycan media nümayəndələri Milli Mətbuatımızın 147 illiyini qeyd etdi. İyulun 22-də Şuşada Milli Mətbuat Günü münasibətilə Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumu keçirildi. İlk dəfə olaraq yerli və xarici jurnalistlərdən, rəsmilərdən və ekspertlərdən ibarət 200 nəfərədək nümayəndə Milli Mətbuat Günündə Şuşada bir araya gəldilər. Beynəlxalq tədbirin əsas məqsədi media sahəsində müxtəlif tendensiyaların qlobal və yerli kontekstdə təhlili, aktual məsələlər ətrafında bilik və təcrübə mübadiləsinin təşviqi, həmçinin, yerli və xarici media nümayəndələri və subyektləri arasında əməkdaşlığın genişləndirilməsi idi.***

Aktual mövzuları əhatə edən tədbir - "Yeni media jurnalistikasına keçid: konvergensiya və yeni imkanlar", "Media etikası: Rəqəmsal mühitdə jurnalistlərin peşə davranışı", "Azərbaycan Mətbuatında Şuşa izi", "Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri" adlı ümumi 4 paneldə keçirildi. Birinci panel sessiyada ənənəvi medianın problemləri və yeni mediaya inteqrasiyanın zəruriliyi, yaranan yeni imkanların və mediada yeni tendensiyaların qlobal və yerli kontekstdə təhlili, yeni medianın ənənəvi informasiya sənayesinin obyektiv transformasiya prosesinə təsiri və digər məsələlər müzakirə olundu.

Mediada plüralizm - media sahəsində uğurlu beynəlxalq təcrübələrin müxtəlif mövqelərinin yerli tətbiqi imkanlarının araşdırılması, medianın dövrün yaratdığı yeni tendensiyalarla üzləşməsi, media etikasının aktual problemləri kimi məsələlər "Media etikası: Rəqəmsal mühitdə jurnalistlərin peşə davranışı" mövzusunda keçirilən 2-ci panel sessiyası müzakirə edildi.

"Azərbaycan mətbuatında Şuşa izi" mövzusunda 3-cü panel sessiyasının iştirakçıları Vətən müharibəsi dövründə Azərbaycan mətbuatının rolundan danışıblar.

Sonuncu sessiyada isə Azərbaycan Türkiyə media platforması, Türk Dövlətləri Təşkilatı çərçivəsində media əməkdaşlığı, tərəfdaşlığın gücləndirilməsi, Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri, birgə araşdırmalar və layihələr, qəbul edilmiş qərarların icrasına dair müzakirələr "Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivləri" mövzusunda müzakirə olundu.



Mətbuat tariximizdə öz əhəmiyyəti ilə sayılıb-seçilən tədbirlərdən olan "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumunda fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi də əsas hədəflərdən olub.

Bəs görəsən bu tədbir mətbuatımız üçün hansı yeniliklər, gözləntilər vəd edir?

"İki sahil" qəzetinin Baş redaktoru Vüqar Rəhimzadə isə "Unikal"a bildirib ki, Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə oldu: "Öncə qeyd edim ki, dünyanın 20-yə yaxın ölkəsinin media nümayəndələrini, ekspertlərini, Azərbaycan jurnalistlərini Şuşaya qovuşduran Zəfər yolu mediamızı birliyə, həmrəyliyə, dövlətçilik maraqları naminə birləşməyə aparan yol idi. Bu bir daha sübut etdi ki, Şuşa yalnız diplomatik deyil, həm də bir ideologiya mərkəzinə çevrilib. İctimai fikrə təsir imkanları böyük olan mətbuatı düşündürən məsələlərin, qarşıda dayanan vəzifələrin Şuşada müzakirə olunması isə böyük tarixi hadisədir. Prezidentimizin jurnalitlərə ünvanlanan məktubunda da qeyd edilmişdi ki, müstəqillik dövrümüzdə ilk dəfə Azərbaycan jurnalistləri Ermənistanın 30 ilə yaxın davam edən işğalından sonra öz peşə bayramlarını ölkəmizin mədəniyyət paytaxtı, milli mətbuatımızın inkişafında xüsusi yeri olan, Qarabağın tacı Şuşa şəhərində qeyd edirlər. Milli Mətbuat Günü ilə bağlı Şuşada keçirilən ilk tədbir zəngin ənənələrə malik Azərbaycan mediasının tarixində əlamətdar hadisə oldu. Dövlət başçısının qeyd etdiyi kimi Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməlidir. Saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalıdırlar. Cəmiyyətimizin düzgün və qərəzsiz məlumat əldə etməsi üçün çalışmalıdırlar. Mən hesab edirəm ki, mətbuatımız bunun öhdəsindən layiqincə gələcək".

V. Rəhimzadə onu da bildirib ki, informasiyanın yaradılması, ötürülməsi, cəmiyyətə çatdırılması üzrə texnologiyaların sürətlə dəyişdiyi bir dövrdə media sahəsi üzrə peşəkarlar arasında daimi qarşılıqlı təcrübə mübadiləsinin aparılması zəruridir. Ona görə də, V. Rəhimzadə bu Formdan böyük nəticələr əldə ediləcəyini bildirdi.

"Xalq cəbhəsi" qəzetinin baş redaktoru Elçin Mirzəbəylinin fikrincə, tədbirin belə bir mötəbər məkanda, Azərbaycanın incisi olan Şuşada keçirilməsi özü-özlüyündə böyük əhəmiyyət kəsb edir. Baş redaktor deyir ki, mədəniyyətimizin və qürurumuzun paytaxtı Şuşada keçirilən Milli Mətbuat Günü və Beynəlxalq Media Forumu əlamətdar hadisə kimi yaddaşlara həkk olunacaq. Həmsöhbətimiz deyir ki, iyulun 21-də Bakıda keçirilən "Dərinləşən media islahatları: Yeni hədəflərə doğru" adlı konfransdan sonra Şuşada baş tutan "Mediada qlobal trendlər, yeni çağırışlar" mövzusunda Beynəlxalq Media Forumunda bütün məqamlar yüksək peşəkarlıqla təşkil edilmişdi. Şuşada keçirilən Beynəlxalq Foruma gəldikdə isə, baş redaktor deyir ki, bu tədbir Azərbaycanda media sahəsində həyata keçirilən islahatların növbəti, həm də daha dinamik mərhələsinin başlanıldığını elan edən mesaj kimi qəbul edilməlidir: "Bu məqam Prezident İlham Əliyevin Milli Mətbuat Günü ilə bağlı media nümayəndələrinə ünvanladığı müraciətdə özünü daha qabarıq büruzə verir. Cənab Prezident müraciətində öncə son illər həyata keçirilmiş islahatların media fəaliyyətinin qanunvericilik bazasının təkmilləşdirilməsi, iqtisadi əsaslarının möhkəmləndirilməsi, jurnalistlərin sosial təminatının yaxşılaşdırılması, dövlətin kommunikasiya siyasətinin müasir dövrün tələblərinə uyğun həyata keçirilməsi, jurnalistika sahəsində çevikliyin, peşəkarlığın yüksəldilməsi, cəmiyyətimizi narahat edən mənfi təzahürlərin aradan qaldırılması, medianın beynəlxalq əlaqələrinin genişləndirilməsi və dost ölkələrlə birgə platformaların yaradılması məqsədi daşıdığını, bu sahədə nəzərəçarpacaq irəliləyiş əldə edildiyini vurğulayır, sonra isə qeyd edir ki, "vətənpərvərlik, yüksək milli şüur, ali məqsədlər uğrunda cəmiyyətimizin səfərbər olunmasına layiqli töhfələr vermiş Azərbaycan jurnalistləri hər zaman prinsipiallıq nümayiş etdirməli, saxta və yalan məlumatlara söykənən kampaniyaların qlobal səviyyədə vüsət aldığı bir şəraitdə Azərbaycanın dövlətçilik maraqlarını uca tutmalı, vətəndaşlarımızın dolğun və düzgün məlumat əldə etmək hüquqlarını təmin etməli, cəmiyyətimizin tərəqqisi naminə var gücləri ilə çalışmalıdırlar". Qarşıya qoyulan hədəf kifayət qədər aydındır və media sahəsindəki islahatların yeni, Şuşadan başlayan mərhələsində bu hədəflərə doğru forma ilə məzmunun vəhdət təşkil etdiyi bir yol xəritəsi ilə hərəkət ediləcəyinə zərrə qədər də şübhəm yoxdur".

E.Mirzəbəyli onu da bildirdi ki, əslində "Şuşa" və "Beynəlxalq Media Forumu" anlayışlarının özü belə media sahəsindəki islahatların mahiyyətini tam şəkildə ifadə edir: "Azərbaycan mediası Milli Mətbuatımızın ənənələrinə, mədəniyyətimizə, dəyərlərimizə söykənərək inkişaf etməli və öz tarixi missiyasını beynəlxalq müstəvidə davam etdirməlidir. Bunun üçün isə yüksək peşəkarlıq, işgüzarlıq, yaradıcılıq potensialı, müasir çağırışlara çevik cavab verə biləcək iti ağıl, vətəndaşlıq məsuliyyəti tələb olunur.

Baş redaktor forumdan böyük gözləntilərinin olduğunu söylədi. Onu da bildirdi ki, Milli Mətbuatımızın 150-ci ildönümündə Şuşada artıq bu istiqamətlərdə əldə edilən nəticələrdən danışılacağına böyük ümid bəsləyir.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



## Özünü şəhid qardaşı kimi təqdim edən şəxsi polis döyüb? - RƏSMİ AÇIQLAMA

***Son günlər özünü şəhid qardaşı kimi təqdim edən Elnur Həsənov adlı şəxs müsahibələr verərək polis bölməsinə əsassız aparıldığını, orada döyüldüyünü və təhqir edildiyini iddia edirdi.***

Məsələ ilə bağlı DİN Mətbuat Xidmətinin bölmə rəisi Zeyni Hüseynov ”Unikal”a açıqlamasında bildirib ki, Elnur Həsənovun dedikləri tamamilə yalandır, polisi öz qanuni hərəkətlərindən çəkindirmək və törətdiyi qanunazidd əməlləri ört-basdır etmək məqsədi daşıyır.

Belə ki, Suraxanı rayonunun Qaraçuxur qəsəbə sakini gənc qadın A.K uzun müddətdir ki, müxtəlif vaxtlarda yaşadığı rayonun polis idarəsinə, polis bölməsinə, eləcə də Bakı şəhər Baş Polis İdarəsinə və Daxili İşlər Nazirliyinə müraciət edərək uzaq qohumu olan Həsənov Elnur Mahal oğlunun dəfələrlə ona evlilik təklif etməsini, lakin hər dəfə rədd cavabı aldıqda onu narahat etdiyini, razılaşmayacağı təqdirdə isə ölümlə hədələdiyini bildirib.

Qadın ərizələrində E.Həsənovun ögey qardaşının şəhid olmasından sui-istifadə edərək heç kimdən qorxmadığını da qeyd edib. A.K-nın bütün müraciətləri qanunamüvafiq qaydada qeydə alınaraq həmin müraciətlər üzrə E.Həsənov polis orqanlarına dəvət edilir və onun barəsində profilaktiki və inzibati tədbirlər görülürdü. Lakin görülmüş profilaktiki və inzibati tədbirlərdən nəticə çıxarmayan Elnur Həsənov A.K-nın təqibini davam etdirdiyinə görə sonuncu növbəti dəfə Nəsimi Rayon Polis İdarəsinə müraciət edərək artıq intihar həddinə çatdığını bildirmiş, eləcə də şikayətçinin atası və qardaşı ərizə ilə müraciət edərək Elnur Həsənovun barəsində tədbir görülməsini xahiş ediblər.

Bu müraciətlər əsasında Elnur Həsənov saxlanılıb və barəsində toplanmış materiallar ilə birlikdə məhkəməyə göndərilib. Məhkəmənin qərarı ilə E.Həsənov barəsində 1 ay müddətinə inzibati həbs tənbehi seçilib.

## Ceyran ovlayan brakonyer polisə təhvil verilib

***Şirvan Milli Parkının əməkdaşları tərəfindən gecə saat 01:05 radələrində Milli Parkın 3 saylı postunun yaxınlığında ceyran ovlayan brakonyerlərin olduğu aşkar edilib. Brakonyerlərdən biri saxlanılıb, digəri isə parkın əməkdaşlarının qanuni tələblərinə tabe olmayaraq ərazidən qaçıb.***

Bunu ”Unikal”a Bioloji Müxtəlifliyin Qorunması Xidmətinin rəsmisi Arzu Babayeva bildirib.

O qeyd edib ki, araşdırma zamanı saxlanılan brakonyerin Salyan rayon Parçaxalac kənd sakini Rəşad Sultanov olduğu müəyyən edilib, faktla bağlı müvafiq sənədləşmə işləri aparılıb.

Xidmət rəsmisinin sözlərinə görə, saxlanılan brakonyer Milli Parkın əməkdaşları tərəfindən Salyan rayon Polis Şöbəsinə təhvil verilib, digər brakonyerin tapılması və barələrində qanunamüvafiq tədbirlərin görülməsi məqsədilə rayon polis şöbəsinə müraciət olunub.

# Jurnalistikaya qabiliyyət imtahanının vaxtı açıqlandı

***Dövlət İmtahan Mərkəzi iyulun 31-də ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinin jurnalistika ixtisasına qəbul olmaq istəyən abituriyentlər üçün qabiliyyət imtahanı keçirəcək.***

DİM-dən ”Unikal”a verilən məlumata görə, bu imtahanda jurnalistika ixtisasına qəbul olmaq üçün internet vasitəsilə anket doldurараq qeydiyyatdan keçmiş və III ixtisas qrupu üzrə test imtahanı verərək müsabiqə şərtini ödəyən abituriyentlər iştirak edə biləcəklər.

İmtahanda 703 abituriyentin iştirakı nəzərdə tutulur.

İmtahan Bakı şəhərində və DİM-in regional bölmələrinin yerləşdiyi Naxçıvan, Gəncə, Lənkəran, Şəki, Bərdə, Göyçay, Şirvan, Xaçmaz şəhərlərində təşkil olunacaq.

İmtahanda iştirak edəcək abituriyentlər “İmtahana buraxılış vərəqəsi”ni



DİM-in internet saytından çap edirlər. Buraxılış vərəqəsində imtahanın keçiriləcəyi şəhər (rayon), bina, zal, başlanma vaxtı və abituriyentin imtahan binasına gəlmə vaxtı qeyd olunub. Buraxılış vərəqəsi ilə yanaşı, abituriyentlərə “Yaddaş kitabçası”ndan çıxarış da təqdim olunur. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

İmtahan saat 10:00-da başlanır və 2 saat 30 dəqiqə davam edəcək.

İmtahanların başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

**Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:**

- İmtahana buraxılış vərəqəsi;

- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

**İmtahanın məzmunu haqqında məlumat:**

Qabiliyyət imtahanında mövzular imtahanın başlanmasından bir neçə dəqiqə əvvəl Mətbuat Şurasının və KİV nümayəndələrinin iştirakı ilə seçiləcək və videobağlantı vasitəsilə imtahan mərkəzlərinə çatdırılacaq. Abituriyentlər təqdim olunmuş mövzulardan biri üzrə inşa (esse) yazacaqlar. Yazı işi abituriyentin imtahan verdiyi bölmədən asılı olaraq Azərbaycan və ya rus dilində yerinə yetirilməlidir.

İnşa (esse) abituriyentin seçmiş mövzu üzrə öz nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etdiyi müstəqil, yaradıcı yazı işidir. Abituriyentlərə ictimai-siyasi, iqtisadi, mədəni həyat sahələrinə aid, həmçinin respublikamız, görkəmli şəxsiyyətlər, təhsil, ətraf mühit, mənəviyyat və eləcə də bütün bəşəriyyəti düşündürən qlobal problemlər haqqında müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən sərbəst mövzular təklif olunur.

**İnşanı (esseni) yazarkən abituriyent:**

səliqəli, oxunaqlı və aydın xətlə yazmalı;

öz fikirlərini aydın və savadlı şəkildə ifadə etməli;

mövzunun mahiyyətini açmalı və dolğun əhatə etməli;

yazının tərkib hissələri (giriş, əsas hissə və nəticə) arasında məntiqi rabitə yaratmalı, abzaslarla fərqləndirməli və fikirlərini məntiqi ardıcıllıqla ifadə etməli;

ictimai-siyasi problemlərə yaxşı bələd olduğunu nümayiş etdirməli;

ictimai-siyasi problemləri təhlilətmə, ümumiləşdirmə və məntiqi nəticəçıxarma qabiliyyətini nümayiş etdirməli;

fikir və düşüncələrini anlaşıqlı, məntiqli, rabitəli və aydın surətdə, ədəbi dilin normalarına, o cümlədən, qrammatika, orfoqrafiya, durğu işarələrinin işlənməsi qaydalarına uyğun olaraq ifadə etməli, öz fikir və mühakimələrini əsaslandırmaq üçün bir neçə (3 və daha çox) müvafiq sitat, iqtibas, nümunə və faktlardan (tarixi hadisə, bədii parçalar, həyat hadisələri və s.) istifadə etməlidir.

**Yazı işinin qiymətləndirilməsi zamanı inşanın məzmununu, yazı savadı və aşağıdakı meyarlar nəzərə alınır:**

İnşa yazı (esse) 2-4 səhifə (ən azı 2 səhifə və ya 420 söz) həcmində olmalıdır.

verilmiş mövzunun başa düşülməsi, mövzu üzrə material, əsas fakt və hadisələr haqqında məlumata malik olunması;

abituriyentin mövzuya orijinal yanaşması, öz nöqteyi-nəzərini əsaslandırılmış şəkildə ifadə etmək bacarığı, mövzunun əhatə olunma səviyyəsi, fikirlərin aydın və anlaşıqlı ifadə olunması;

çıxarılan nəticələrin məntiqli və əsaslandırılmış olması;

yazı üslubunun orijinallığı, dilin zənginliyi, obrazlılığı və səlisliyi, savadlılıq səviyyəsi;

yazı işinin ədəbi dilin fonetik (orfoqrafiya və durğu işarələri), qrammatik və leksik normalarına tam riayət edilməklə yazılması.

Yazı işi yuxarıdakı meyarlar nəzərə alınmaqla “məqbul” və ya “qeyri-məqbul”la qiymətləndirilir.

“Qeyri-məqbul” qiyməti mövzunun zəif əhatə olunduğu və ya heç əhatə olunmadığı, abituriyentin mövzunu səthi bildiyini və ya heç bilmədiyini aşkara çıxaran, başqa mövzuda yazılmış, mətnin hissələri arasında məntiqi əlaqənin pozulduğu, abituriyentin özü haqqında hər hansı məlumat yazdığı və ya özünü tanıtmaq məqsədi ilə hər hansı bir işarə vurduğu, 8 və daha çox fonetik, qramatik və leksik səhvi olan yazılara verilir.

Yazı işində abituriyentlərin özləri haqqında hər hansı məlumat (ad, soyad, ata adı, baba adı, məktəb adı, müəllim adı, yaşayış yeri və s.) yazması və ya özlərini tanıtmaqla bağlı hər hansısa işarə vurması qadağandır. Belə hala yol vermiş abituriyentlərin yazı işləri “sıfır” balla qiymətləndirilir. Seçdiyi mövzudan fərqli mövzuda, həmçinin 1 səhifədən (190 sözdən) az həcmdə yazılmış inşalar da “sıfır” balla qiymətləndirilir.

Qeyd edək ki, inşa mövzularına aid nümunələr DİM-in internet saytında (Bakalavriat > Faydalı) yerləşdirilib.

# ASC təhlükəli əraziləri nəzarətə götürüb



***Goranboydan axan çaylarda tənzimləmə işləri görülür, təhlükəli ərazilər nəzarətə götürülüb.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Bakı İxtisaslaşdırılmış Elektrik Avadanlıqlarının Təmir-Quraşdırma və Sazlama İdarəsi Goranboy rayonunda meliorativ tədbirlərini davam etdirir. Bu tədbirlər çərçivəsində Goranboy rayonundan axan Goran çayda tənzimləmə işləri aparılır. Uzun müddətli gələn sel sularının gətirdiyi lil qatı çayın məcrasına dolaraq təhlükə yaradır. Hazırda xüsusi texnikalar vasitəsilə lildən təmizləmə işləri həyata keçirilir. Çayda 400-450 metr məcranın təmizlənməsi və suyun axınının tənzimlənməsi nəzərdə tutulub. Qeyd edək ki, tarixən sel gəlməsi ilə müşahidə olunan Goran çayda belə hadisələrdən biri də 1997-ci ildə baş verib və sel suları magistral yolu yuyub, Yevlax şəhərinə ziyan vurub. Bu günə qədər isə bir daha belə hadisələrin baş verməməsi üçün qabaqlayıcı tədbirlər görülüb.

Bundan başqa idarənin texnikaları vasitəsilə sel suları nəticəsində ətrafda yerləşən əkin sahələrinə təhlükə yarada biləcək Qaraçayda da tənzimləmə işləri həyata keçirilir. Görülən işlərin həcmi Qaraçayda 10 min kub metr olmaqla 500 metr məsafəni əhatə edir. Bu çaydan keçən sel suları qısa bir müddətdə torpaqları yuyayaraq yararsız vəziyyətə salıb. Hazırda isə görülən təxirəsalınmaz işlər nəticəsində çay öz məcrasına qaytarılıb və suyun normal axını təmin olunub.

Qeyd edək ki, hazırda Goranboy rayonundan axan Kürəkçay, Gorançay, İncəçay və Tərtər çayda paralel olaraq çay məcralarının tənzimlənməsi və çaydan keçən suların öz məcrasına qaytarılaraq normal axınının təmin olunması istiqamətində işlər davam etdirilir.

Biləsuvarda 39 min hektara yaxın əkin sahəsi suvarılır. Dilqəm Şərifov bildirib ki, Biləsuvar Suvarma Sistemləri İdarəsi rayon ərazisində yerləşən 38900 hektardan artıq əkin sahəsinin suvarılmasına xidmət edir. Sahələrin 20422 hektarı nasoslar vasitəsilə, 18487 hektarı isə öz axını ilə həyata keçirilir. Son illər əkin dövriyyəsinə əlavə torpaqlar cəlb edilməsi nəticəsində əkin sahələri genişlənərək 57216 hektara çatıb. Əkin sahələrinin suvarılması üçün Cənubi-Muğan kanalı, Arazın yeni qolu və qismən Bolqarçay su anbarından istifadə olunur. 2022-ci ilin 6 ayı ərzində Biləsuvar Suvarma Sistemləri İdarəsi tərəfindən əkin sahələrinin suvarılmasına xidmət edən 2 nömrəli və 10-A nömrəli nasos stansiyalar yeni tipli məhsuldar qurğularla təhciz olunub. Bu da suvarma işlərinin yaxşılaşdırılması və suyun vaxtında və itkisiz su istifadəçilərinə çatdırılmasını təmin edir. Suvarmanı daha da yaxşılaşdırmaq üçün daha 3 ədəd 34, 101, Günəşli-1 nömrəli nasos stansiyaların elektrik iş rejiminə keçirilməsi və R-1 təsərrüfatlararası torpaq məcralı suvarma kanalının beton üzlüyə alınması işləri davam etdirilir.

İdarə tərəfindən bu il əkin sahələrinin suvarılmasına xidmət edən baş kanalların çəkilməsi davam etdirilib. Belə ki, kəndlər üzrə 633 km baş suvarma kanalı və 243 km təsərrüfatlararası və təsərrüfatdaxili suvarma kanalı lildən təmizlənərək mülkiyyətçilərin istifadəsinə verilib. Ümumilikdə 876 km suvarma kanallarında lildən təmizləmə işləri aparılıb.

Bildirək ki, Biləsuvar rayonunda 2022-ci təsərüfat ilində 24440 ha taxıl, 6440 ha pambıq, 6580 ha yonca, 833 ha bostan-tərəvəz, 137 ha günəbaxan, 1365 ha qarğıdalı və digər kənd təsərrüfatı təyinatlı bitkilər əkilərək və suvarılması həyata keçirilib.

***Hüseyn İsgəndərov***

# "AzInTelecom"un müştəri xidmətləri "Şəbəkə" ofisində fəaliyyət göstərəcək

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin Müştəri Xidmətləri vahid mərkəzdə fəaliyyət göstərməyə başlayır.***




Nazirlikdən "Unikal"a verilən məlumata görə, artıq avqustun 1-dən etibarən vətəndaşların "SİMA Token" məhsulunun sifarişi, əldə edilməsi, həmçinin şirkətin digər məhsulları və xidmətləri ilə bağlı müraciətləri yalnız Üzeyir Hacıbəyli küçəsi, 72 ünvanında yerləşən "Şəbəkə" xidmət mərkəzində qəbul ediləcək.

Qeyd edək ki, "SİMA Token" məhsulunu token.sima.az saytı vasitəsilə də sifariş etmək olar. İmza hazır olduqdan sonra Bakı üzrə "Şəbəkə" ofisindəki Müştəri Xidmətlərinə, regionlarda isə yaxınlıqdakı poçt filialına yaxınlaşaraq sifariş edilən tokeni əldə etmək lazımdır.

"SİMA Token"lə bağlı yaranan çətinlik və suallarla əlaqədar "157" Çağrı Mərkəzinə də zəng etmək mümkündür.

Xatırladaq ki, bir müddət öncə "AzInTelecom" MMC-yə məxsus Müştəri Xidmətləri Mərkəzi təkmilləşdirilərək xidmət operatorlarının sayı artırılıb, texniki imkanlar gücləndirilib və bayram günləri də daxil olmaqla, həftə içi saat 09:00-18:00 arası fasiləsiz iş rejiminə keçilib.

# Hərbi liseylərə qəbul imtahanı keçiriləcək



***Dövlət İmtahan Mərkəzi iyulun 31-də Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi liseylərinə qəbul imtahanı keçirəcək.***

Bu barədə "Unikal"a DİM-in mətbuat xidmətindən məlumat verilib. Məlumata görə, imtahan Bakı və Naxçıvan şəhərlərində ümumilikdə 7 binada təşkil olunacaq.

İmtahanda 1735 abituriyentin (Bakı şəhərində 1345 nəfər, Naxçıvan şəhərində 390 nəfər) iştirakı nəzərdə tutulur. İmtahanın idarə olunmasına 7 ümumi imtahan rəhbəri, 19 imtahan rəhbəri, 157 nəzarətçi-müəllim və 14 buraxılış rejimi əməkdaşı (mühafizə) cəlb edilib.

İmtahan bütün binalarda eyni vaxtda - saat 10:00-da başlanır və 2 saat davam edəcək.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İmtahanda iştirak etmək üçün ərizə vermiş abituriyentlər DİM-in internet saytına daxil olaraq "İmtahana buraxılış vərəqəsi"ni çap edirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Yaddaş kitabçası"ndan çıxarış da təqdim olunur. Burada abituriyentlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Abituriyentlər imtahana özləri ilə aşağıdakı sənədləri gətirməlidirlər:

şəxsiyyəti təsdiq edən sənədin əslini;

"İmtahana buraxılış vərəqəsi"ni.

Qeyd: Şəxsiyyət vəsiqəsində şəkli olmayan abituriyentlər digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa abituriyentin 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir)

Göstərilən sənədlərdən biri olmadıqda və ya sənədlər arasında uyğunsuzluq olduqda abituriyent imtahana buraxılmayacaq.

İmtahan binasına giriş zamanı üzərində mobil telefon, konspekt və digər yardımçı vasitələr aşkar olunan abituriyentlər barədə akt tərtib olunacaq və imtahan binasına buraxılmayacaqlar.

# Azərbaycanın hərbi gəmiləri Rusiyada

***Azərbaycan Respublikası və Rusiya Federasiyası Müdafiə nazirlikləri arasında birgə hərbi fəaliyyətlər planına uyğun olaraq Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) "G-121" və "G-129" gözətçi gəmiləri Rusiya Federasiyasında səfərdədir.***

"Unikal" xəbər verir ki, bu barədə MN məlumat yayıb. Məlumata görə, hərbi dənizçilərimiz Rusiya Federasiyasının Xəzər Dəniz Flotiliyasının Kaspiysk Limanında təntənəli qarşılanma mərasimi keçirilib.

Qeyd edək ki, Azərbaycan HDQ-nin gəmi və şəxsi heyəti bir sıra tədbirlərdə iştirak edəcək.

# Magistraturaya qeydiyyat başa çatdı

***2022/2023-cü tədris ili üçün ali təhsil müəssisələrinin və Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) magistratura səviyyəsinə qəbul olmuş şəxslərin elektron qaydada qeydiyyatı başa çatıb.***

"Unikal"a xəbər verir ki, plan yerlərinə uyğun olaraq, 22 ixtisas, 57 ixtisaslaşma üzrə magistraturaya qəbul elan edilib.

Əvvəlki illərlə müqayisədə bu il yeni ixtisaslar da əlavə olunub. Artıq AMEA-nın magistratura səviyyəsinə 150 nəfər bakalavr qeydiyyatdan keçərək təsdiqlənib.

Ümumilikdə, AMEA-da 2022/2023-cü tədris ilində 260-a yaxın magistrant təhsil alacaq.

# PKK-ın rəhbər şəxslərindən biri məhv edildi



***Türkiyə kəşfiyyatı İraqda PKK-ın rəhbər şəxslərindən birini məhv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyənin Milli Kəşfiyyat Təşkilatının (MİT) mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, İraqın şimalında, Süleymaniyyə şəhərində keçirdiyi əməliyyat zamanı PKK-nın rəhbər şəxslərindən sayılan Hatice Hezer zərərsizləşdirilib.

# Ukrayna Təhlükəsizlik Xidmətinin polkovniki saxlanıldı

***Ukraynanın Dnepropetrovsk vilayətində Ukrayna Təhlükəsizlik Xidmətinin (SBU) polkovniki saxlanılıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, bir müddət əvvəl o, sərxoş halda polisi avtomatla hədələyib.

Daha sonra SBU polkovniki sükan arxasına keçərək qaçmağa çalışsa da, o, tutularaq yerli polis şöbəsinə aparılıb.

Ukrayna mətbuatının məlumatına görə, həmin şəxsə qarşı vəzifə səlahiyyətlərindən sui-istifadə maddəsi ilə cinayət işi açılıb.

***Ağarza Elçinoğlu***

# "Son əsgərimizə qədər döyüşəcəyik" - Zelenski

***Ukraynalılar dövlətçilik uğrunda mübarizə aparacaq və torpaqlarının son metrini də azad etməyincə dayanmayacaqlar.***

"Unikal" xəbər verir ki, bunu prezident Volodimir Zelenski Ukraynanın Dövlətçilik Günü ilə bağlı videomüraciəti zamanı deyib.

"Bizim üçün əsirlikdə yaşamaq yaşamaq deyil, asılı olmaq olmaq deyil. Çünki müstəqil və azad olmayan Ukrayna Ukrayna deyil. Biz "quldarlıq" sözünü bilmirik. Dövlətçiliyimiz üçün son nəfəsimizə, son patronumuza, son əsgərimizə qədər döyüşəcəyik", - deyə Ukrayna dövlətinin başçısı bildirib.

***Gülayə Mecid***

# Rusiyanın Ukraynadakı müharibədə itkiləri

***Ukrayna tərəfi Rusiya ordusunun itkilərinin yenilənmiş siyahısını təqdim edib.***



Bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Qeyd olunub ki, fevralın 24-dən etibarən Rusiya tərəfi 40 230 hərbçisini itirib. Bundan başqa, Rusiyanın 1 742 ədəd tankı, 3 979 ədəd zirehli döyüş maşını, 894 ədəd artilleriya sistemi, 258 ədəd reaktiv yaylım atəşi sistemi, 117 hava hücumundan müdafiə sistemi, 222 ədəd hərbi təyyarəsi, 190 ədəd helikopteri, 174 qanadlı raketi, 2 854 ədəd nəqliyyat vasitəsi və avtoçəni, 15 ədəd gəmi-kateri, 729 ədəd dronu və 75 ədəd xüsusi texnikası məhv edilib.

# İrəvanda türkiyəli sürücü öldürüldü

***İrəvanda Türkiyə vətəndaşı öldürülüb. AzVision.az xəbər verir ki, bu barədə Ermənistanın kriminal saytı olan "Shamshiyan" məlumat yayıb. Qeyd edilir ki, o, Ermənistana sürücü kimi gəlibmiş.***

"İyulun 27-si saat 17:00 radələrində Şenqavit polis şöbəsinə Araratyan küçəsi 62/23 ünvanında kişi meyitinin olması barədə məlumat daxil olub. Polis və müstəntiqlər məlum ərazidə türk nömrələri olan "İveco" markalı yük maşınının yanında kişi cəsədinin olmasını təsdiqləyiblər.

Faktla bağlı Şenqavit İstintaq İdarəsində cinayət işi başlanılıb. Müstəntiqin qərarı ilə meyitə məhkəmə-tibbi ekspertizası təyin edilib. Ölən şəxs türkdür. Polis və istintaq şöbəsi mərhumun şəxsiyyətini müəyyənləşdirir" - məqalədə yazılıb.

Xatırladaq ki, bir neçə gün öncə sosial şəbəkələrdə ermənilərin Türkiyəyə məxsus yük maşınını saxlayaraq onun üzərində türk dilində olan yazıların silinməsi və sürücünün təhqir edilməsi ilə bağlı video yayılmışdı.

# İranın dronuna möhtac Rusiya - TƏHLİL

## İkinci qlobal güc İran ilə Türkiyənin ümidinə qalıb




***Bir qədər əvvəl "New York Times" nəşrinin ABŞ kəşfiyyatının hesabatına istinadən verdiyi xəbərlərdə Rusiyanın Ukrayna müharibəsində ortaya çıxan strateji boşluğu doldurmaq məqsədilə 300-ə yaxın pilotsuz uçuş aparatı almaq üçün İrana müraciət etdiyi bildirilirdi. ABŞ hökumətinin təqdim etdiyi peyk görüntülərindən Rusiya rəsmiləri və PUA mütəxəssislərinin silah daşıya bilən "Şahed-191" və "Şahed-129" PUA-larını sınaqdan keçirmək üçün iyunun 8-də və iyulun 5-də İranın mərkəzi aerodromuna səfər etdikləri məlum oldu.***

ABŞ Prezidentinin Milli Təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivan "Washington Post" qəzetinə verdiyi müsahibə bildirdi ki, onların əldə etdiyi məlumata görə, İran hökuməti tezliklə Rusiyaya bir neçə yüzə qədər PUA, o cümlədən, zərbə PUA-ları verməyə hazırlaşır və tezliklə Rusiya operatorları üçün təlimlər başlayacaq.

Dünən isə "censor.net" saytı hərbi yüklərin Həştərxan və Volqoqrad vasitəsilə Ukrayna sərhədlərinə çatdırılması və bu yükün əsasən "Şahed 129" ağır zərbə pilotsuz pilotsuz uçuş aparatlarından ibarət olması barədə məlumat verdi. Xəbərlərin ardıcıllığı və təqdim edilən peyk görüntüləri İranın Rusiyaya PUA ixracına dair əvvəl mövcud olan azsaylı şübhələri tam aradan qaldırdı.

Ardınca isə Rusiyanın "Bayraktar" pilotsuz təyyarələrinin istehsalı sahəsində Türkiyə ilə əməkdaşlıq etmək niyyəti barədə məlumatlar yayıldı. "CNN Turk" kanalına açıqlamasında Türkiyə Prezidenti R.T.Ərdoğanın "Putin mənə dedi ki, "Baykar" şirkətilə işləmək istəyir" söyləməsi bir qədər sensasiyalı olsa da, şəxsən mən təəccüblənmədim. Kreml rəhbərindən gələn bu təklif eyni zamanda Rusiyanın Ukraynada verdiyi itkilərin miqyasını da təsəvvür etməyə imkan verir.

Dünya ölkələrinin şübhə ilə yanaşdığım reytinqinə görə planetdə ikinci yer tutan Rusiyanın İran və Türkiyə PUA-larına maraq göstərməsinin əsas səbəbinin rus generallarının 2008-ci ilə qədər PUA-ların imkanlarını lazımınca dəyərləndirməməsi olduğuna şübhə yoxdur. Enerjidaşıyıcılarından böyük gəlirlər əldə edən və aviasiya vasitələri istehsalında SSRİ-dən qalma böyük potensiala malik olan Rusiyanın kosmosa peyklər göndərməsi, qitələrarası ballistik raketlər istehsal etməsi fonunda yerli PUA istehsalını təşkil edə bilməməsi, özündən azı 10 dəfə kiçik döyüş potensialına malik Ukraynanın qarşısında geri çəkilməmək üçün İran və Türkiyədən imdad diləməsi doğrudan da, ictimaiyyətdə təəccüb doğurur. Bütün bunlar rus generallarının müasir texnologiyaları düzgün dəyərləndirməməsi və yerli müdafiə sənayesinin yanlış istiqamətlərə yönləndirilməsi nəticəsində baş verib.

Rusiya təbliğat maşınının yerli generallara istinadən davamlı olaraq digər ölkələrin istehsal etdiyi silah sistemlərini tam araşdırmadan zəif, bəzən isə yararsız kimi dəyərləndirməsi, pilotlu aviasiyanı daim pilotsuz vasitələrdən üstün sayması sonunda ölkəni PUA idxalından asılı vəziyyətə salıb. İran PUA-ları kifayət qədər geniş çeşiddə istehsal edilsə də, müdafiə sənayesi inkişaf etmiş digər ölkələrin məhsullarının plagiat versiyası hesab edilir. Ən azından İran hələlik PUA sahəsində Türkiyədən bir çox istiqamətlərdə, xüsusilə də stels texnologiyada və idarəolunan PUA sursatlarının istehsalında xeyli geri qalır.

Rusiyanın Türkiyə PUA-larına dövlət rəhbəri səviyyəsində marağı isə bir daha türk mühəndislərin dünya miqyasında əldə etdikləri nailiyyətlərin göstəricisidir. "Baykar" şirkətinin Rusiyaya PUA-lar tədarük edəcəyi də real görünmür. Ümumiyyətlə, türk silahlı PUA-larından bu gün Azərbaycan, Pakistan, Qətər, Ukrayna, Liviya, Türkmənistan, Fas, Qırğızıstan, Nigeriya, Efiyopya, Tacikistan və Cibuti artıq istifadə edir. Durmadan artan sifarişçilərin siyahısına isə Böyük Britaniya, Polşa, Səudiyyə Ərəbistanı, Qazaxıstan, Macarıstan, Latviya, Litva, Bosniya-Herseqovina, Albaniya, Salvador, Serbiya, Slovakiya, Ekvador, Uruguay daxildir. NATO ölkələri də daxil olmaqla növbədə gözləyən sifarişçilərin sırasına 2-ci böyük qlobal gücün əlavə olunması Azərbaycan Prezidenti İlham Əliyevin 2009-cu ilin payızında keçirilən Naxçıvan sammitində "XXI əsr türk əsri olacaq" bəyanatını birmənalı şəkildə təsdiqləyir. 13 il əvvəl səsləndirilən bu bəyanat hazırda dünyada gedən siyasi-hərbi proseslərinin əsas istiqamətini əks etdirir(azvision).

***Ədalət Verdiyev, hərbi ekspert***

# Misir Ukrayna ilə 84 milyon dollarlıq müqavilədən imtina etdi



***Misir hakimiyyəti Ukraynadan 240 min ton buğdanın alınması ilə bağlı müqavilədən imtina edib.***

"Unikal" xəbər verir ki, bu barədə "Reuters" agentliyinin məlumatında qeyd olunub.

Bildirilir ki, iki təchizatçı şirkət "Inerco" və "Nibulon" müqavilə öhdəliklərindən azad edilib. Müqavilələrə Misirin malların tədarükü üzrə Baş İdarəsinin təşəbbüsü ilə xitam verilib. Nəşrin məlumatına görə, ötən ilin dekabrında Misir hökuməti taxılın tonunu 346-360 dollara alıb. Ukraynadakı münaqişə ucbatından taxıl çatdırılmayıb.

***Ağarza Elçinoğlu***

# FİFA prezidenti "Qarabağ"ı təbrik ETDİ

***FİFA prezidenti Canni İnfantino "Qarabağ"ı təbrik edib.***

"Unikal" xəbər verir ki, isveçrəli funksioner Çempionlar Liqasının II təsnifat mərhələsinin "Sürix" - "Qarabağ" görüşünü stadiondan izləyib.

Əlavə vaxtın oynanıldığı matç 2:2 hesabı ilə nəticələnib. Bu, "Qarabağ"ı III təsnifat mərhələsinə daşıyıb.



İnfantino görüşdən sonra Ağdam təmsilçisinin İdarə Heyətinin üzvü Fevzihan Arası qələbə və mübariz oyun münasibəti ilə təbrik edib, uğurlar arzulayıb.

Qeyd edək ki, "Qarabağ" II təsnifat mərhələsində İsveçrə təmsilçisi "Sürix"i mübarizədən kənarlaşdırıb - 3:2, 2:2.

# Stanislav Çerçesov: "O, "Qarabağ"ı təhlil etməyimizə kömək edəcək"

***"30 il əvvəlin qisasını ala bildiyimiz üçün macar azarkeşlərlə birlikdə bu nəticəyə sevinə bilərik. Yaxşı komandaya rəhbərlik etdiyimi bilirdim və matçın gedişində vəziyyəti çevirəcəyimizdən əmin idim".***

Apasport.az saytının məlumatına görə, bunu "Qarabağ"ın Çempionlar Liqasının III təsnifat mərhələsindəki rəqibi "Ferensvaroş"un baş məşqçisi Stanislav Çerçesov "Slovan"ı səfərdə 4:1 hesabı ilə məğlub etdikləri II raundun cavab oyunu barədə danışarkən deyib.



Rusiyalı mütəxəssis ilk matçda 1:2 hesabı ilə uduzan komandasının geridönüşünə öncədən inandığını bildirib. Çerçesov "Qarabağ"la qarşıdakı matçlara da münasibət bildirib: "Bu uğurun azarkeşlər, komanda, klub, hətta məşqçi üçün nə demək olduğunu ayırd etmək mümkün deyil. Bu qələbə qrup mərhələsinə doğru atılan ilk addımlardan sadəcə, biri idi. Müəyyən uğurdur. Ancaq tezliklə daha bir vacib qarşılaşma gələcək və buna diqqət yetirməliyik. Növbəti mərhələdəki rəqibimiz "Qarabağ"ın "Sürix"lə oyununu müşahidəçilərimizdən biri tribunadan izləyib. O, Azərbaycan klubunu təhlil etməyimizə kömək edəcək. Bununla belə, hələlik daxili çempionatın başlaması haqda düşünürəm. Mövsümün ilk çempionat görüşümdə yaxşı çıxış etmək vacibdir".

Qeyd edək ki, "Qarabağ"la "Ferensvaroş" arasında ilk oyun avqustun 2-də və ya 3-də, cavab qarşılaşması isə 9-da baş tutacaq. Azərbaycan çempionu birinci matçını evdə keçirəcək.

# "Bunlar baş verməməli idi" - "Sürix"in baş məşqçisi

***"Heyət, məşqçilər, oyunçular - hamımız məyusuq. Çox şey planlaşdırmışdıq. Qələbə üçün konsentrasiya çatmadı. İlk qolu əks-hücumda buraxmamalıydıq. Bunlar baş verməməli idi".***

Qol.az xəbər verir ki, bu sözləri İsveçrə "Sürix"inin baş məşqçisi Franko Foda Çempionlar Liqasının 2-ci təsnifat mərhələsində "Qarabağ"la 2:2 hesabı ilə heç-heçə etdikləri ev oyunundan sonra keçirilən mətbuat konfransında deyib.

"Bir az bəxtimiz gətirsəydi, qalib gələ bilərdik. Hesab 1:1 olarkən mübarizə apardıq. Əlavə vaxtın ilk hissəsində qol buraxmaq ayıbdır" - deyə o bildirib.

Mütəxəssis qarşıda duran vəzifələr haqda isə bunları deyib: "Əlbəttə, indi komandanı ayağa qaldırmağın vaxtıdır. Yenidən canlanmalıyıq. Həftəsonuna qədər az vaxtımız var".

Qeyd edək ki, "Qarabağ" iki oyunun nəticəsinə (3:2, 2:2) əsasən 3-cü təsnifat mərhələsinə yüksəlib.



"Sürix" isə mübarizəni Avroliqada davam etdirəcək.

# Ronaldo müqaviləsinə xitam verilməsini istəyir - "Mançester Yunayted"dən

***Kriştiano Ronaldo "Mançester Yunayted"dən getməyə qərar verib.***

Portuqaliyalı hücumçu İngiltərə təmsilçisindən getmək istədiyi klub rəhbərliyinə çatdırıb. O, mançesterliləri müqaviləyə xitam verilməsini istədiyi barədə məlumatlandırıb. Ronaldo özünə Çempionlar Liqasında oynayan klub tapmaq istəyir. Premyer Liqa təmsilçisi ulduzu buraxmaq fikrində deyil.



Qeyd edək ki, 2021-ci ildə "Mançester Yunayted"ə keçən Ronaldonun müqaviləsi 2022/23 mövsümünün sonunda başa çatacaq.



# Klublarımızın oyunlarını göstərəcək kanallar

***Konfrans Liqasının 2-ci təsnifat mərhələsində bu gün ikinci oyuna çıxacaq təmsilçilərimiz "Neftçi", "Zirə", "Qəbələ"nin cavab matçları canlı yayımlanacaq.***

Qol.az xəbər verir ki, görüşlər aşağıda adları qeyd olunan kanallar vasitəsi ilə birbaşa nümayiş olunacaq.

28 iyul
"CBC İnternational"
20:00. "Qəbələ" - "Fehervar" (Macarıstan)
"CBC Sport"
21:00. "Neftçi" - "Aris" (Limmasol, Kipr)
İTV
21:30. "Makkabi" (Təl-Əviv, İsrail) - "Zirə"

# ÇL-də 3-cü təsnifat mərhələsinin bütün cütləri




***Çempionlar Liqasının 3-cü təsnifat mərhələsinin bütün cütləri dəqiqləşib.***

Turnirdə mübarizəni davam etdirən təmsilçimiz "Qarabağ" bu mərhələdə "Ferentsvaroş"la (Macarıstan) qarşılaşacaq. Millimizin üzvü Mahir Emrelinin formasını geyindiyi Zaqreb "Dinamo"su (Xorvatiya) isə "Ludoqorets"lə (Bolqarıstan) üz-üzə gələcək.

ÇL-də 3-cü təsnifat mərhələsinin bütün cütləri
Çempionlar yolu
"Makkabi" (Hayfa, İsrail) - "Apollon" (Limassol, Kipr)
"Qarabağ" (Azərbaycan) - "Ferentsvaroş" (Macarıstan)
"Ludoqorets" (Bolqarıstan) - "Dinamo" (Zaqreb, Xorvatiya)
"Şerif" (Moldova) - "Viktoriya" (Plzen, Çexiya
"Bodo Qlimt" (Norveç) - "Jalgiris" (Litva)
"Srvena Zvezda" (Serbiya) - "Pünik" (Ermənistan)
Liqa yolu
"Monako" (Fransa) - PSV (Niderland)
"Dinamo" (Kiyev, Ukrayna) - "Şturm Qrats" (Avstriya)
"Yunion" (Belçika) - "Reyncers" (Şotlandiya)
"Benfika" (Portuqaliya) - "Midtyulland" (Danimarka)

Qeyd edək ki, bu mərhələnin ilk görüşləri 2-3 avqustda, cavab matçları isə 9-10 avqustda keçiriləcək.

# AFFA 6 klubun 1-ci divizionda iştirakına icazə vermədi

***"Füzuli", "Ağsu Siti", "Göyəzən", "İrəvan", "Qobustan" və "Bakılı" klubları 1-ci divizionda iştirak üçün AFFA-ya müraciətlər ünvanlayıb.***

"Unikal" AFFA-nın saytına istinadən xəbər verir ki, bununla bağlı müvafiq qaydada araşdırma aparılıb. Bildirilib ki, sənədlərə baxış keçirilən zaman heç bir müraciətin AFFA və Peşəkar Futbol Liqası tərəfindən təqdim olunan meyarlara uyğun gəlmədiyi müəyyən olunub. Beləliklə, tələb olunan meyarlara uyğun şəkildə sənədlər təqdim olunmadığı üçün müraciət etmiş klubların 2022/2023 mövsümündə 1-ci divizionda çıxışı təmin olunmayacaq.